

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Sizə Bakıdan danışım...



8

№ 075 (7000)

1 may 2024-cü il.
Qiyməti 60 qəpik

# Qitələr arasında körpü salan Azərbaycan



6

İlham Əliyev: "Almaniya-Azərbaycan əlaqələrinin inkişafı həm ölkələrimiz üçün, həm də bütövlükdə Cənubi Qafqazın inkişafı və sabitliyi üçün çox böyük əhəmiyyət kəsb edir"

# Fransaya bumeranq zərbəsi



5

## Azərbaycan ilə Kuba qlobal müstəvidə bir-birinin mənafelərini müdafiə edir




4

## Sivilizasiyalararası dialoqa töhfə verən beynəlxalq tədbirlər MƏRKƏZİ




3

## "COP29 sülh prosesinin nəticəsidir"




13

## Boşanmaların görünməyən səbəbləri NƏLƏRDİR?



12

## Yol terrorunun qarşısını almağın ən asan yolu



7

# Azərbaycanın mədəniyyətlər və dinlərarası dialoqa verdiyi töhfə...

## İlham Əliyev ABŞ-ın İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin və Stirlinq Fondunun nümayəndələrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Amerika Birləşmiş Ştatlarının İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin rəhbər heyəti, ”On iki Həvari Kvorumu”nun üzvü Deyvid Bednarı, İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin ”Yetmiş Həvari Kvorumu”nun üzvü Cek Gerardı, Stirlinq Fondunun prezidenti Mayls Hanseni və Stirlinq Fondunun baş icraçı direktoru Edvard Rounu qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Bakıda keçiriləcək Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun önəminə toxunularaq, bu tədbirin beynəlxalq miqyasda mədəniyyətlərarası dialoqun genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu. Forumda müxtəlif ölkələrdən çox sayda nüfuzlu qonağın iştirak etməsi bu tədbirə dünyada göstərilən marağın nümunəsi kimi dəyərləndirildi.

Söhbət zamanı Azərbaycanın mədəniyyətlər və dinlərarası dialoqa verdiyi töhfə barədə danışıldı, ölkəmizdə tarixən müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələrinin vahid bir ailə kimi dinc və sülh şəraitində yaşadıqları məmnunluqla vurğulandı.



# “Ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətləri uğurla inkişaf edir”

## Prezident İlham Əliyev Pakistanın MUSLİM İnstitutunun direktorunu qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Pakistan İslam Respublikasının MUSLİM İnstitutunun direktoru, Cunaqad Ştatının Baş naziri Sahibzadə Sultan Əhməd Əlini qəbul edib. Görüşdə Bakıda keçiriləcək Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyəti vurğulandı, bu tədbirin müxtəlif mədəniyyətlərin nümayəndələri arasında əlaqələrin qurulması işinə töhfə verdiyi qeyd olundu.**

Söhbət zamanı Azərbaycan-Pakistan əlaqələrinə toxunularaq ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi, müxtəlif məsələlərlə bağlı Azərbaycanın və Pakistanın daim bir-birini dəstəkləməsinin önəmi vurğulandı.

Görüşdə Ulu Öndər Heydər Əliyevin Pakistana səfərinin ölkələrimiz arasında əlaqələrin təməlini qoyduğu qeyd edildi və yüksək səviyyədə həyata keçirilən qarşılıqlı səfərlərin və görüşlərin münasibətlərimizin möhkəmlənməsi işinə töhfə verdiyi bildirildi.

# “Azərbaycan qlobal çağırışlarla mübarizə sahəsində birgə fəaliyyətə hər zaman hazırdır”

**“Azərbaycan geniş anlamda regionda güclü iqtisadiyyatların qurulması, habelə qlobal çağırışlarla mübarizə sahəsində birgə fəaliyyətə hər zaman hazırdır.” Bunu xarici işlər naziri Ceyhun Bayramov aprelin 30-da Ərəb Dövlətləri Liqası - Mərkəzi Asiya - Azərbaycan Respublikası Əməkdaşlıq və İqtisadi Forumunun 3-cü iclasında çıxışı zamanı deyib.**



Nazir, həmçinin ölkəmizin Avrasiya məkanında, istər Orta Dəhliz vasitəsilə Mərkəzi Asiyadan keçməklə Avropa və Çin arasında, istərsə də Körfəz ölkələrinə qapı açmaqla Şimal və Cənub arasında strateji yerləşmə mövqeyi kimi diqqət çəkdiyini qeyd edib.

Azərbaycanın infrastruktur imkanları və biznes yönümlü şəraitinin regional əməkdaşlıq və bağlantıların inkişafı üçün mərkəz rolunu oynadığını diqqətə çatdıran Ceyhun Bayramov geniş alternativ enerji potensialına malik olan ölkəmizin alternativ enerji ixracı imkanlarını qeyd edib.

Nazir qeyd edib ki, Azərbaycan COP29 sədrliyi zamanı Qoşulmama Hərəkatına rəhbərliyi təcrübəsindən istifadə edərək, müxtəlif inkişaf səviyyələrinə malik ”Qlobal Şimal” və ”Qlobal Cənub”u bir araya gətirməkdə qərarlıdır. O, həmçinin COP29-un öz növbəsində Mərkəzi Asiya və Ərəb ölkələri ilə alternativ enerji, iqlim yönümlü kənd təsərrüfatı və təbii fəlakət risklərinin öyrənilməsi sahələrində əməkdaşlıq üçün platforma rolunu oynayacağını da diqqətə çatdırıb.

”Azərbaycanın tərəfdarı olduğu ikitərəfli və birbaşa sülh danışıqları Cənubi Qafqazda dayanıqlı sülhə və sabitliyə hesablanıb, habelə delimitasiya komissiyaları arasında əldə olunmuş son razılıqların da nümayiş etdirdiyi kimi qarşılıqlı şəkildə qəbul oluna bilən nəticələrin əldə edilməsi baxımından ən səmərəli və uğurlu xətt kimi özünü doğruldur.”

Ceyhun Bayramov tədbirdəki çıxışında, həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, bu fəaliyyətə təhdid törədən mina təhlükəsi barədə də danışıb.

# XİN: ”Fransa rəsmisinin Azərbaycana qarşı əsassız və ittiham xarakterli iddialarını qətiyyətlə rədd edirik”



Aprelin 29-da Fransanın daxili işlər naziri Jeral Darmanən tərəfindən Fransa Milli Assambleyasının hüquq komitəsində Azərbaycan-Yeni Kaledoniya əlaqələrindən danışarkən ölkəmizə qarşı səsləndirilmiş əsassız və ittiham xarakterli iddiaları qətiyyətlə rədd edirik. Azərbaycanı Yeni Kaledoniyanın timsalında guya separatçılığa dəstək verməkdə günahlandıran nazir unudur ki, məhz rəsmi Paris uzun müddət ərzində Azərbaycanda aqressiv separatizmi dəstəkləyən addımlar atıb, qondarma separatçı rejimin nümayəndələrini Fransada mütəmadi əsasda yüksək səviyyədə qəbul edib.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Fransanın daxili işlər naziri Jeral Darmanənin Fransa Milli Assambleyasının hüquq komitəsində Azərbaycana qarşı səsləndirdiyi iddialara dair şərhində yer alıb.

O, həmçinin qeyd edib: ”Fransanın hakim partiyasının təşəbbüsü ilə Fransa parlamentinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini sual altına qoyan, onlara xələl gətirən, separatçı rejimi tanıyan qərar və qətnamələr qəbul etməklə yanaşı, keçmiş qondarma separatçı rejimlə dostluq qrupunun fəaliyyətinə imkan yaratdığı məlumdur. Fransanın daxili işlər naziri erməni əhalinin qətliamı kimi Azərbaycana qarşı heç bir əsası olmayan gülünc və ucuz qarayaxmaya cəhdi göstərmək əvəzinə, ölkəsinin uzun illər boyu həyata keçirdiyi və hazırda da davam etdirdiyi müstəmləkəçilik siyasəti çərçivəsində yerli xalqlara qarşı törətdiyi insanlıq əleyhinə cinayətləri, vəhşicəsinə qətlə yetirdiyi milyonlarla günahsız insanı unutmamalıdır.

Bütün qeyd olunanların fonunda Fransa hökumət rəsmisinin beynəlxalq dövlətlərarası münasibətlər baxımından heç bir etik çərçivəyə sığmadan Azərbaycanın konstitusional dövlət quruluşu haqqında qəsdən təhqir dolu ifadələrdən istifadə etməsi tamamilə qəbuledilməzdir.

Bir daha Fransadan Azərbaycanın daxili işlərinə qarışmamağı və ölkəmizə qarşı əsassız iddialar səsləndirməyə son qoymağı tələb edirik. Ölkəmizin milli maraqlarını qoruması üçün bundan sonra da bütün zəruri tədbirlər görəcəyini bir daha bəyan edirik”.

# Sivilizasiyalararası dialoqa töhfə verən beynəlxalq tədbirlər MƏRKƏZİ

**Şərqlə Qərbin ortaq dəyərlər modeli sayılan Azərbaycan, Prezident İlham Əliyevin məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində dünyanın mədəniyyətlərarası dialoq mərkəzlərindən birinə çevrilib. Azərbaycan dövləti tərəfindən həyata keçirilən tədbirlər bəşəriyyətin təhlükəsiz gələcəyi və birgəyaşama ənənələrinə, dialoq və mədəni çeşidliliyə dəstəyin bariz nümunəsidir. Azərbaycan dünya ölkələri arasında mədəni əlaqələrin gücləndirilməsinə ev sahibliyi edərək, bu əlaqələrin inkişafına yüksək önəm verdiyini bir daha ortaya qoymuş olur. Paytaxt Bakımız daha bir beynəlxalq səviyyəli tədbirə - VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna ev sahibliyi edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildə əsası qoyulan "Bakı Prosesi" çərçivəsində keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu mədəniyyətlərarası dialoq sahəsində beynəlxalq və qlobal səviyyədə yeganə platformadır.**

2010-cu ilin 23 sentyabr tarixində BMT-nin Baş Assambleyasının 65-ci sessiyasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçiriləcəyi elan edildi. Bakıda Dünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi ilə regional təşəbbüs qlobal hərəkata çevrildi. Forum artıq mədəniyyətlərarası dialoq platformasına çevrilib və 100-dən çox ölkənin nümayəndəsini bir araya gətirir.




## SÜLH VƏ QLOBAL TƏHLÜKƏSİZLİK NAMİNƏ DİALOQ: ƏMƏKDAŞLIQ VƏ QARŞILIQLI ƏLAQƏ

Qeyd edək ki, "Bakı Prosesi" çərçivəsində müntəzəm olaraq Azərbaycanda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Bakı Beynəlxalq Humanitar Forumu, eləcə də Dünya Dini Liderlərinin Sammiti və Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının Qlobal Forumu təşkil edilib. 2011-ci ildə Bakıda ilk dəfə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu sonra 2013, 2015, 2017 və 2019-cu illərdə təşkil edilib. Mayın 1-dən 3-dək Bakıda "Sülh və qlobal təhlükəsizlik naminə dialoq: əməkdaşlıq və qarşılıqlı əlaqə" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu "Bakı Prosesi"nin tərkib hissəsi olaraq İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) tərəfindən BMT-nin Sivilizasiyalar Alyansı (UNAOC), UNESCO və BMT-nin Ümumdünya Turizm Təşkilatı ilə birgə təşkil olunub. Azərbaycanda müasir dövrdə millətlərarası münasibətlər və din sahəsində həyata keçirilən dövlət siyasəti beynəlxalq hüquq normalarına və zəngin tarixi köklərə əsaslanır. Dünyanın mədəniyyət mərkəzlərindən biri kimi tanınan Azərbaycanda sivilizasiyalararası və dinlərarası dialoqa töhfə verən bir sıra nüfuzlu beynəlxalq tədbirlərin keçirilməsi artıq ənənəyə çevrilmişdir. Azərbaycan dövləti tərəfindən mədəniyyətlər arasında dialoqun və əməkdaşlığın təşviqinə yönələn beynəlxalq miqyaslı tədbirlər onun mədəni müxtəlifliyə dəstəyinin bariz göstəricisidir. Ölkəmizdə beynəlxalq tədbirlərin keçirilməsi, dinindən, irqindən asılı olmayaraq, saysız insanların Azərbaycana səfəri bu diyarın sivilizasiyaların qovuşuğunda yerləşdiyinə əsaslanır. Ölkəmizin durmadan artan beynəlxalq nüfuzu, mədəniyyətlərarası dialoq Azərbaycanın beynəlxalq tədbirlərin mərkəzinə çevrilməsinə dəlalət edir. Bütün bunlar Azərbaycan dövlətinin sülhsevər olduğunu və multikulturalizm siyasətini dünya ictimaiyyətinə təqdim edir.

## FORUMDA 700 MÖTƏBƏR QONAQ İŞTİRAK EDƏCƏK

Qlobal sülhün qorunması, dayanıqlı inkişaf, ədalətli bölüşmə, regional rifah və inkişafda uçurumun azaldılması önəmli hədəflər sırasındadır və belə mövzuların müzakirə edilərək, mühüm qərarlar qəbul edilir.Forumda 100-dən çox ölkəni təmsil edən 700 mötəbər qonaq iştirak edəcək. Yüksək səviyyəli dövlət xadimləri, parlament rəhbərləri, dini liderlər, alimlər, jurnalistlər və müxtəlif etnik və mədəni qrupa daxil olan şəxslərdən ibarət iştirakçılar mənalı dialoq vasitəsilə sülh və qlobal təhlükəsizliyə doğru irəliləyişə nail olmaq üçün bir araya gələcəklər. Üç gün davam edəcək Forum çərçivəsində 12 panel müzakirə və 4 plenar sessiyanın keçirilməsi nəzərdə tutulur. Forumda təhsil, gənclər, iqlim dəyişikliyi, süni intellekt, mədəni irsin mühafizəsi, dini müxtəlifliyin qorunması, qanunsuz miqrasiya və digər məsələlər müzakirə ediləcək. Forum iştirakçılarının Azərbaycanın 30 illik işğaldan azad edilmiş ərazilərinə səfərlərinin təşkili də gözlənilir. Tədbir çərçivəsində Ağdamda və Şuşada xüsusi panel sessiyaların keçirilməsi də nəzərdə tutulur. Bu, eyni zamanda, Azərbaycanın işğaldan azad etdiyi ərazilərdən beynəlxalq ictimaiyyətə müraciət üçün bir platforma yaratmaq fürsətidir.

Xalqlar və millətlər arasında dözümlülüyün və birgə yaşamanın gücləndirilməsi üçün bu cür tədbirlərin çox böyük mənası vardır. Azərbaycan mədəniyyətlərarası təmasların, dialoqun təşviq edilməsi üçün indiyə qədər bir çox tədbirlər keçirmişdir. Özü də bu tədbirlər beynəlxalq səviyyədə təşkil olunub.

## SİVİLİZASİYALARARASI DİALOQ VƏ ƏMƏKDAŞLIQ PLATFORMASI

Sözügedən Forum artıq beynəlxalq səviyyədə böyük nüfuz qazanıbdır. Hazırda dünyanın qarşılaşdığı, üzləşdiyi çağırışların çətinliyini və mürəkkəbliyini nəzərə alaraq, bu kimi problemlərin aradan qaldırılması yalnız birgə səylər vasitəsilə mümkündür. Azərbaycan nadir məkandır ki, burada sivilizasiyalar, mədəniyyətlər bir-biri ilə qovuşur. Burada müxtəlif mədəni təsirlər, ümumi tarixi irs mövcuddur. Bütün bunlar bizim müştərək işlər üçün yol açır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, "Bizim tariximiz mədəni müxtəliflik tarixidir və bu gün həmin tarixi irs əsasında Azərbaycan dünyaya mədəniyyətlərarası dialoqun ölkələri yaxınlaşdırmağın, müxtəlif mədəniyyət və sivilizasiya nümayəndələri arasında yeni körpülərin qurulmasının yeganə yol olduğunu nümayiş etdirir". Ölkəmizdə təşkil olunan beynəlxalq tədbirdə müxtəlifliyi, mədəniyyətlərarası dialoqu, sülh və inkişafı, eləcə də bunlar arasında əlaqənin təmin edilməsi məqsədi ilə müzakirələr aparılır və qərarlar qəbul olunur.

## HƏR MƏSƏLƏNİN MƏRKƏZİNDƏ İNSAN AMİLİ DAYANIR

Dünyanın müxtəlif regionlarında sabitliyin pozulduğu, ekstremizmin və terrorçuluğun genişlənməsinin təhlükəli hal aldığı zamanda onların qarşısını almaq üçün siyasi yolların axtarılması və bəşəriyyəti irəliyə doğru aparacaq ideyaların təşviqinin gücləndirilməsi zərurəti yaranıb. Dünyanın müxtəlif yerlərində müxtəlif zəmində toqquşmaların baş verdiyi halda, Azərbaycan sülhün və həmrəyliyin carçısına çevrilib. Mədəniyyətlərarası Forum, məhz belə halların qarşısının alınmasına öz töhfələrini vermiş olur. Paytaxt Bakı Forum çərçivəsində dostluq, sülh, tərəfdaşlıq və mədəni müxtəliflik məsələlərinə öz töhfəsini bir daha vermiş olacaq. Bu forum vasitəsilə Azərbaycan mədəni potensialını beynəlxalq mühitdə möhkəmləndirir və mədəniyyətlərarası dialoq kontekstində körpü rolunu oynayır. Təbii ki, hər məsələnin mərkəzində insan amili dayanır və bəşəriyyətdə olan insanların rifahının yüksək olması vacib məsələlərdəndir. Sülhün qorunması, dayanıqlı inkişaf, ədalətli bölüşmə, regional rifah və inkişafda uçurumun azaldılması önəmli hədəflər sırasındadır və belə mövzuların müzakirə edilərək, mühüm qərarların qəbul edilməsi vacibdir.

## QLOBALLAŞMA QAÇILMAZ PROSESDİR

Xatırladaq ki, qitələrarası mədəni əməkdaşlığı inkişaf etdirmək məqsədilə I Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Azərbaycanın təşəbbüsü ilə "5 A - Mədəniyyətlərarası Əməkdaşlıq Platforması" təsis edilmişdir. Avropa, Asiya, Amerika, Afrika, Avstraliya qitələrinin adlarının Azərbaycan dilində "A" hərfi ilə başladığını nəzərə alınaraq simvolik olaraq yeni platformanın adı "5 A" kimi müəyyən edilmişdir. 2013-cü ilin 29 may - 1 iyun tarixində "Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşamaq" şüarı altında Bakıda 2-ci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirildi. 2015-ci il tarixdə Bakı şəhərində "Mədəniyyəti ortaq təhlükəsizlik naminə paylaşaq" devizi altında 3-cü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşkil olundu. Sülh ağacı üçüncü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Yeni Bulvarın ərazisində qoyuldu. "Sülh ağacı" xalqlar arasında anlaşma rəmzi kimi qəbul edilir, münaqişələri həll etməyi, dünyada sülhü yaymağı təbliğ edir.

2017-ci il tarixində Bakı şəhərində "Mədəniyyətlərarası dialoqun inkişafı: İnsan təhlükəsizliyi, sülh və davamlı inkişaf üçün yeni imkanlar" mövzusunda 4-cü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu öz işinə başladı. Forumda iştirak etmək üçün 120-dək ölkə rəsmisi, 39 beynəlxalq təşkilatdan nümayəndələr, 50-dən çox qeyri-hökumət təşkilatı qeydiyyatdan keçdi. Ümumilikdə tədbirdə təqribən 800-dən çox xarici nümayəndə iştirak edirdi.

Qloballaşma artıq qaçılmaz bir prosesə çevrilib və hüdudları çox genişdir. Bu o deməkdir ki, qloballaşma müxtəlif mədəniyyətlərin nümayəndələri arasında təmasları artırmış, mədəni müxtəlifliyi daha da genişləndirmişdir. Beynəlxalq ictimaiyyət artıq bu məsələni öz gündəliyində vacib, mühüm bir məsələyə çevirib.

***Zümrüd BAYRAMOVA***






# Azərbaycan ilə Kuba qlobal müstəvidə bir-birinin mənafelərini müdafiə edir

## YAP Mərkəzi Aparatının rəhbəri ilə Kuba Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri arasında görüş keçirilib

**Aprelin 30-da Kuba Kommunist Partiyası (KKP) Mərkəzi Komitəsinin təşəbbüsü ilə Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla KKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Kuba Respublikası Xalq Hakimiyyəti Milli Assambleyasının deputatı Emilio Ratmir Lozada Qarsia arasında videoformatda görüş keçirilib.**

Görüşdə dostluq və tərəfdaşlıq prinsiplərinə əsaslanan Azərbaycan-Kuba münasibətlərinin inkişafının məmnunluq doğurduğu diqqətə çatdırılıb. Vurğulanıb ki, Azərbaycan ilə Kuba qlobal müstəvidə, o cümlədən BMT, Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatlat səviyyəsində bir-birinin mənafelərini müdafiə edir və səmimi dostluq örnəyi sərgiləyirlər.

Emilio Ratmir Lozada Qarsia Azərbaycanın 1993-cü ildə BMT Baş Assambleyasının 48-ci sessiyasında Kubaya qarşı embarqonun aradan qaldırılmasını tələb edən qətnaməni postsovet məkanında dəstəkləyən yeganə ölkə olduğunu xatırladaraq bu faktı Ümummilli Lider Heydər Əliyevin Kuba dövlətinə və xalqına dost münasibətinin göstəricisi kimi dəyərləndirib. O, Azərbaycanın bu gün də istər ikitərəfli qaydada, istərsə də beynəlxalq platformalarda Kubaya dost münasibətini minnətdarlıqla qarşıladıqlarını bildirib. Onun sözlərinə görə, regionda və dünyada nüfuzu artmaqda olan Azərbaycan ilə əlaqələr çərçivəsində Yeni Azərbaycan Partiyası ilə əməkdaşlığın qurulması Kuba Kommunist Partiyası üçün böyük önəm daşıyır.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan dövlətinin ünvanına söylədiyi xoş sözlərə görə Emilio Ratmir Lozada Qarsiaya təşəkkürünü bildirib və iki ölkə arasında əlaqələrin tarixi köklərə malik olduğunu, vaxtilə yüzlərlə kubalı gəncin Azərbaycanda ali təhsil aldıqlarını vurğulayaraq bu gün də dövlətlər arasında müxtəlif sahələri əhatə edən əməkdaşlığın inkişafı üçün geniş potensialın mövcud olduğunu qeyd edib. O, Kuba Respublikasının Prezidenti Miqel Mario Dias-Kanel Bermudesin 2019-cu ildə Bakıda keçirilən Qoşulmama Hərəkatının Zirvə Toplantısında iştirakının, eləcə də 2020-ci ildə COVID-19 pandemiyasına qarşı mübarizə tədbirləri çərçivəsində kubalı mütəxəssislərdən ibarət həkim briqadalarının ölkəmizə gəlməsinin Azərbaycan ilə Kuba arasındakı dostluq münasibətlərinin bariz nümunəsi olduğunu diqqətə çatdırıb. Tahir Budaqov Azərbaycan Respublikasının 2025-2027-ci illər üçün Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurasına üzvlüyünə namizədliyinin Kuba tərəfindən dəstəklənməsinə görə minnətdarlığını ifadə edib.

Söhbət zamanı Yeni Azərbaycan Partiyası və Kuba Kommunist Partiyası arasında əlaqələrin də inkişaf etdirilməsinin önəmi diqqətə çatdırılıb. Qeyd olunub ki, qarşılıqlı səfərlərin və intensiv görüşlərin həyata keçirilməsi, fikir və təcrübə mübadiləsinin aparılması Azərbaycan-Kuba münasibətlərinin mühüm tərkib hissəsi kimi partiyalararası əlaqələrin inkişafına əhəmiyyətli töhfə olacaqdır. Görüşdə gələcəkdə partiyalararası əməkdaşlıq sazişinin imzalanması perspektivləri haqqında fikir mübadiləsi aparılıb və bu barədə razılıq əldə olunub.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər bir sıra məsələlər də müzakirə edilib.

Qeyd edək ki, onlayn görüşdə Azərbaycan Respublikasının Kuba Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Ruslan Rzayev və Kubanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Karlos Enrike Valdes de la Konsepsyon da iştirak ediblər.

# Ərəb Liqası-Azərbaycan və Mərkəzi Asiya formatını dəstəkləyən Doha Bəyannaməsi qəbul edilib

***Dünən Ərəb Dövlətləri Liqası - Mərkəzi Asiya - Azərbaycan Respublikası Əməkdaşlıq və İqtisadi Forumunun 3-cü iclası keçirilib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, tədbirdə çıxış edən xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanın tarixi və mədəni tellərlə bağlı olduğu Mərkəzi Asiya və ərəb ölkələri ilə diplomatik və iqtisadi münasibətlərinin inkişaf perspektivlərindən danışıb. O, forum çərçivəsində aparılan müzakirələrin enerji təhlükəsizliyi, nəqliyyat, turizm, kənd təsərrüfatı, yüksək texnologiyalar sənayesi üzrə əməkdaşlıqla bağlı konkret Yol Xəritəsinin formalaşmasına töhfə verdiyini qeyd edib.***

Nazir Azərbaycanın geniş anlamda regionda güclü iqtisadiyyatların qurulması, habelə qlobal çağırışlarla mübarizə sahəsində birgə fəaliyyətə hər zaman hazır olduğunu vurğulayıb.

Azərbaycanın Avrasiya məkanında istər Orta Dəhliz vasitəsilə Mərkəzi Asiyadan keçməklə Avropa və Çin arasında, istərsə də, Körfəz ölkələrinə qapı açmaqla Şimal və Cənub arasında strateji yerləşmə mövqeyi qeyd edilib. Həmçinin ölkəmizin infrastruktur imkanları və biznes yönümlü şəraitinin regional əməkdaşlıq və bağlantıların inkişafı üçün mərkəz kimi diqqət çəkdiyi bildirilib.

Xüsusilə, geniş alternativ enerji potensialına malik olan Azərbaycanın bu sahədə sərmayələrin təşviqinə əhəmiyyət verdiyi, bu istiqamətdə artıq Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", habelə Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətləri ilə birgə bərpaolunan enerji layihələrinin reallaşdırılmasının əhəmiyyəti qeyd olunub.

COP29-a hazırlıq işlərindən də danışan nazir vurğulayıb ki, Azərbaycan COP29 sədrliyi zamanı Qoşulmama Hərəkatına rəhbərliyi təcrübəsindən istifadə edərək, müxtəlif inkişaf səviyyələrinə malik "Qlobal Şimal" və "Qlobal Cənub"u bir araya gətirməkdə qərarlıdır.



Nazir Ceyhun Bayramov, həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, bu fəaliyyətə təhdid törədən mina təhlükəsi, habelə Azərbaycan və Ermənistan arasında normallaşma prosesi barədə ətraflı məlumat verib.



Sonda Forumun yekunlarına dair qəbul olunmuş Doha Bəyannaməsində Ərəb Liqası-Azərbaycan və Mərkəzi Asiya formatı qarşılıqlı maraq doğuran məsələlər üzrə mövcud ikitərəfli və çoxtərəfli əməkdaşlığı dəstəkləyən dəyərli platforma kimi qiymətləndirilib, habelə müxtəlif digər formatlardakı səylərin təkrarlanmadan problem və nəticələrə yönümlü yanaşmanın sərgilənməsinin zəruriliyi qeyd edilib.

Doha Bəyannaməsində, eyni zamanda, Azərbaycan və Ermənistan arasında normallaşma prosesinə dəstək, sülh müqaviləsinin tezliklə yekunlaşdırılmasına dair çağırış, habelə Azərbaycanın 4 kəndinin qaytarılmasını nəzərdə tutan delimitasiya razılığının əhəmiyyətinə vurğu öz əksini tapıb.

Birləşmiş Ərəb Əmirliklərinin 2022-2023-cü illər ərzində BMT Təhlükəsizlik Şurasına üzvlüyünün təqdirəlayiq olduğu bildirilib, habelə beynəlxalq təşkilatlar çərçivəsində ümumi maraqlara əsaslanan qarşılıqlı dəstək və əlaqələndirilməyə çağırış olunub.

Ölkəmizin 2024-2026-cı illər ərzində Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə (AQEM) sədrliyinin məmnunluq doğurduğu, habelə AQEM və Ərəb Liqası arasında birgə layihə və tədbirlərin təşkilinə dəstək ifadə olunub.

Doha Bəyannaməsi, eyni zamanda, bir sıra ölkələrdə, o cümlədən Azərbaycanda sülh, sabitlik və təhlükəsizliyə hədə törədən mina təhdidindən dərin narahatlıq ifadə edərək, BMT və üzv dövlətləri, habelə digər maraqlı tərəfləri bu təhlükəyə qarşı mübarizədə dəstək göstərməyə dəvət edib. Ölkəmizin COP29 sədrliyinə seçilməsi məmnunluqla qarşılanıb, COP29 çərçivəsində iqlim dəyişikliyi ilə mübarizədə dəstək ifadə olunub.

Doha Bəyannaməsində, həmçinin Azərbaycan və Mərkəzi Asiyanı əlaqələndirən yaşıl enerji dəhlizinin iqlim dəyişikliyi ilə mübarizə, habelə yaşıl texnologiyalara keçid prosesində əhəmiyyətinə vurğu edilib.

# Fransaya bumeranq zərbəsi

***Fransa əlahəzrət fakt qarşısında boynu qıldan nazik dayanıb. Başqasında tük axtardığı yerdə öz gözündə tirlər oynamağa başlayıb. Azərbaycana və Türkiyəyə atdığı çamurda indi özü çapalayır. Türkiyəni ermənilərə qarşı "genosid" törətməkdə ittiham edən Fransanın keçmiş çirkli tarixinə Azərbaycanın müraciət edəcəyinə heç Paris də inanmırdı. Düşünürdülər ki, fransızların Əlcəzairdə, Afrikanın cənub-qərb və şərq ölkələrində etdiyi bəşəri cinayətlər barədə danışmağa kimsənin cəsarəti çatmaz. Amma Azərbaycan bunu bacardı, erməni separatçılığını dəstəkləyən Fransanı elə öz silahı ilə vurdu. Fransanın müstəmləkəsi olan, Avropadan min kilometrlərdə uzaqda, Sakit okeanın tam ortasında adalardan ibarət Yeni Kaledoniyanın uzun illərdən bəri apardığı azadlıq mübarizəsinə dəstək olmaqla Parisin siyasətini yerlə bir etdi.***



Qeyd edək ki, Yeni Kaledoniya Fransanın Sakit okeanda yerləşən xüsusi inzibati-ərazi qurumudur. Sakit okeanın cənub-qərb hissəsində, Melaneziyada eyniadlı böyük bir ada və bir qrup kiçik ada ilə təmsil olunur. Cənub-qərbdə Avstraliyanın iqtisadi zonası, şimalda Vanuatu, cənub-şərqdə Fici ilə həmsərhəddir. Yeni Kaledoniyanın əhalisi Qarabağda yaşayan və Fransanın dəstək verdiyi erməni separatçılarının sayından 6 dəfə çox - 245,580 nəfərdir. Paytaxtı Numea şəhəridir və şəhərin 98 min əhalisi var.

Fransa Ermənistan kimi terroru, separatizmi, işğalçılığı dövlət siyasətinin əsası kimi götürən Ermənistanı dəstəkləməklə kimliyini ortaya qoyub. Erməni lobbisi ilə sinxron hərəkət edən, hətta onun təsiri altında olan Fransa hökuməti, eləcə də prezident Makron ermənilərin dəstəyini əldə etmək üçün müharibə dövründə işğalçı ölkəyə siyasi, iqtisadi və hərbi dəstək göstərib. Fransanın Azərbaycana olan münasibəti tamamilə qərəz və açıq düşmənçilik üzərində qurulub. Fransa 30 ildən sonra Azərbaycanın təcavüzkar Ermənistan üzərində qələbə qazanmasını həzm edə bilmir. Fransanın soyqırımlarla dolu tarixində 1,5 milyona yaxın əlcəzairlinin qətlə yetirilməsi bu ölkənin cinayətlərlə dolu tarixinin bir vərəqidir. Əlcəzairdə Fransanın müstəmləkə işğalına qarşı mübarizə aparan yerli müqavimətçilərin kəllə sümükləri həmin dövrdə Parisə kolleksiya üçün göndərilmişdir. Amma rəsmi Paris bu gün nə Əlcəzairdən, nə də soyqırımına məruz qoyduğu digər ölkələrdən üzr istəmək istəmir. Əvəzində Paris muzeyində əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümüklərini qənimət kimi saxlayır və ziyarətçilərə qürur mənbəyi kimi sərgiləyir.




Fransanın yüz ildən çox bir müddət ərzində Əlcəzair xalqına qarşı çox dəhşətli müharibəni unutdurmağa çalışır. Əlcəzairlilər isə kütləvi qəddarlığı əsla unutmayacaq. Fransanın törətdiyi daha bir faciə isə 1961-ci ilin oktyabrında baş verib. O zaman on minlərlə əlcəzairli işğalı pisləmək üçün Parisdə nümayişə çıxıb və polisin açdığı atəşlə 1500 etirazçı qətlə yetirilib, mindən çox şəxs həbs olunub. Buna "Sena qətliamı" da deyirlər. Yelisey sarayı hələ də bu faciə ilə bağlı susqunluq nümayiş etdirir. Törətdiyi qətliamlara görə məsuliyyəti boynuna almamaq ənənəsi bacısı Ermənistana da sirayət edib. İşğalçı dövlət 1992-1993-cü illərdə Qaradağlıda, Ağdabanda, Xocalıda və digər yaşayış məntəqələrində azərbaycanlılara qarşı törədilən soyqırımı törədib. Hər iki halda cinayətkarlar planlı şəkildə həyata keçirdikləri qətliamların məsuliyyətini boyunlarına almayıblar.

## Türkiyədən cavab

Türkiyə Xarici İşlər Nazirliyi Fransa Milli Assambleyasının 29 aprel 2024-cü ildə qəbul etdiyi Assuriyalılar və Keldanilərlə bağlı qətnamə ilə bağlı açıqlama yayıb. Qeyd olunur ki, Osmanlı İmperiyasına qarşı ittihamların yer aldığı bu qətnamə hüquqi və tarixi əsaslandırmadan məhrumdur: "Keçən il Fransa hökuməti Senatın qəbul etdiyi oxşar qətnaməni dəstəkləmədiyini söylədi. Eyni əsassız ittihamların indi də iqtidar partiyasından olan deputatlar tərəfindən Parlamentin gündəliyinə salınması tarixi hadisələri siyasi maraqlar naminə təhrif etmək cəhdlərinin nümunəsidir". Rəsmi Ankara parlamentlərin tarixi şərh etmək və qiymətləndirmək səlahiyyətinin olmadığını vurğulayıb. "Bu qətnamə həm də soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında BMT-nin 1948-ci il Konvensiyasına ziddir. Konvensiyada soyqırım cinayətinə görə ittihamların yalnız səlahiyyətli məhkəmə tərəfindən irəli sürülə biləcəyi bildirilir", - Türkiyə Xarici İşlər Nazirliyi açıqlamasında qeyd edib.

## Azərbaycandan əks-reaksiya

"29 aprel 2024-cü il tarixində Fransanın daxili işlər naziri Jerar Darmanin tərəfindən Fransa Milli Assambleyasının hüquq komitəsində Azərbaycan-Yeni Kaledoniya əlaqələrindən danışarkən ölkəmizə qarşı səsləndirilmiş əsassız və ittiham xarakterli iddiaları qətiyyətlə rədd edirik". Bu məlumatı isə Azərbaycan Xarici İşlər Nazirliyi yayıb. Qeyd edilir ki, Azərbaycanı Yeni Kaledoniyanın timsalında guya separatçılığa dəstək verməkdə günahlandıran Fransanın daxili işlər naziri unudur ki, məhz Fransa tərəfi uzun müddət ərzində Azərbaycanda aqressiv separatizmi dəstəkləyən addımlar atıb, qondarma separatçı rejimin nümayəndələrini Fransada mütəmadi əsasda yüksək səviyyədə qəbul edib.



Fransanın hakim partiyasının təşəbbüsü ilə Fransa Parlamenti Azərbaycanın ərazi bütövlüyü və suverenliyini sual altına qoyan və xələl gətirən, separatçı rejimi tanıyan qərar və qətnamələr qəbul etməklə yanaşı, keçmiş qondarma separatçı rejim ilə dostluq qrupunun fəaliyyətinə imkan yaratdığı məlumdur. Fransanın daxili işlər naziri erməni əhalinin qətliamı kimi Azərbaycana qarşı heç bir əsası olmayan gülünc və ucuz qarayaxmaya cəhd göstərmək əvəzinə, ölkəsinin uzun illər boyu həyata keçirdiyi və hazırda da davam etdirdiyi müstəmləkəçilik siyasəti çərçivəsində yerli xalqlara qarşı törətdiyi insanlıq əleyhinə cinayətləri, vəhşicəsinə qətlə yetirdiyi milyonlarla günahsız insanı unutmamalıdır.

Bütün qeyd olunanların fonunda Fransa hökumət rəsminin beynəlxalq dövlətlərarası münasibətlər baxımından heç bir etik çərçivəyə sığmadan Azərbaycanın konstitusional dövlət quruluşu haqqında qəsdən təhqir dolu ifadələrdən istifadə etməsi tamamilə qəbuledilməzdir. Bir daha Azərbaycanın daxili işlərinə qarışmamağı və ölkəmizə qarşı əsassız iddialar səsləndirməyə son qoymağı Fransadan tələb edirik. Ölkəmizin öz milli maraqlarının qorunması üçün bundan sonra da bütün zəruri tədbirlər görəcəyini bir daha bəyan edirik.

Bəli, Fransa özünü dünya qütblərindən biri hesab edir. Əksər hallarda Paris özünü arbitr kimi aparır, özünün tarixi cinayətləri barədə danışanları müxtəlif yollarla susdurmağa çalışır. Amma unudur ki, Azərbaycan nə Ermənistan kimi "kiçik bacı", nə də XXI əsrdə müstəmləkə boyunduruğu altında zülm verdiyi Afrika ölkəsidir.

***V.VƏLİYEV***



# Qitələr arasında körpü salan Azərbaycan

## İlham Əliyev: "Almaniya-Azərbaycan əlaqələrinin inkişafı həm ölkələrimiz üçün, həm də bütövlükdə Cənubi Qafqazın inkişafı və sabitliyi üçün çox böyük əhəmiyyət kəsb edir"

Beynəlxalq birliyin ən fəal üzvlərindən olan Azərbaycan regionda və dünyada mehriban qonşuluq siyasəti yürüdərək, böyük dövlətlərlə, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığı daha da möhkəmləndirir. Azərbaycan beynəlxalq aləmdə sülhsevər, demokratik prinsiplərin inkişafına xüsusi önəm verən, irimiqyaslı infrastruktur layihələrin reallaşdırılmasında zəngin təcrübəsi olan bir ölkə kimi tanınır. Azərbaycan-Almaniya münasibətləri də yüksələn xətt üzrə inkişaf edir. Siyasi, təhlükəsizlik və digər sahəsində də əməkdaşlıq sahəsində uğurlar əldə olunub. Almaniya Azərbaycanla ikitərəfli əməkdaşlığa olan marağı yalnız ölkəmizin strateji-coğrafi mövqeyə malik olması və zəngin karbohidrogen ehtiyatları ilə deyil, həm də möhkəm siyasi sabitliyə, beynəlxalq birliyə öz töhfəsini verməsi ilə də bağlıdır. Son 14 ay ərzində Cənab İlham Əliyevin Almaniyaya dörd dəfə səfəri əlbəttə ki, bu əməkdaşlığın uğurla davam etməsinə söykənir. Azərbaycan Prezidenti İlham Əliyevin bu günlərdə Almaniyaya işgüzar səfəri əlaqələrin davamlığına əsaslanır. Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatla çıxışı zamanı bildirdiyi kimi, "Almaniya-Azərbaycan əlaqələrinin inkişafı həm ölkələrimiz üçün, həm də bütövlükdə Cənubi Qafqazın inkişafı və sabitliyi üçün çox böyük əhəmiyyət kəsb edir"

### "COP29-A EV SAHİBLİYİ EDƏCƏK ÖLKƏ KİMİ AZƏRBAYCAN QLOBAL TƏDBİRƏ HAZIRLIĞIN FƏAL MƏRHƏLƏSİNDƏDİR"

Hər il dünyanın hər yerindən hökumət nümayəndələri COP-da toplaşaraq iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində birgə səylər göstərmək üçün çağırışlar edir. COP29 çərçivəsində bütün dünyada gedən proseslərə, o cümlədən iqlim, həm digər yaşıl ideyalar, yaşıl proqramla bağlı məsələlərə Azərbaycan platformasında baxılacaqdır.Azərbaycanın dövlət maraqlarına uyğun şəkildə həyata keçirilən beynəlxalq tədbirlər ölkəmizin dünyadakı nüfuzunu günü-gündən daha da sarsılmaz edir. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un Azərbaycanda keçirilməsi əlbəttə ki, ölkəmizə olan daha bir inam və ehtiramın göstəricisidir. Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi etməsi ölkəmizin inkişafının təqdimatı baxımından da əhəmiyyətlidir.Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"un Yüksək Səviyyəli Seqmentində çıxışında bildirib ki, COP29-a ev sahibliyi edəcək ölkə kimi Azərbaycan qlobal tədbirə hazırlığın fəal mərhələsindədir: "COP29-a ev sahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən yaşıl enerji sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik. Nəhayət bu, böyük məsuliyyətdir, çünki biz nəinki yaxşı tədbir təşkil etməli, o cümlədən yaxşı nəticələrə nail olmalıyıq. Hesab edirəm ki, Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla beynəlxalq əlaqələri və onlarda fəal iştirakı bizə müxtəlif qitələrin ölkələri arasında körpülər salmaq və ya onları gücləndirmək, eləcə də onların həmrəyliyini möhkəmləndirmək imkanını yaradacaq".

### QLOBAL ƏHƏMİYYƏTLİ TƏŞƏBBÜSLƏR - YENİ ƏMƏKDAŞLIQ İMKANLARI

Azərbaycanın BMT-dən sonra ikinci böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına sədrliyi kifayət qədər uğurlu və əksər üzv dövlətlər tərəfindən nümunəvi sədrlik olaraq təqdir edilməkdədir. Sədrlik dövründə Azərbaycan Respublikası Hərəkatın beynəlxalq münasibətlər sistemindəki əvvəlki nüfuzunu bərpa etməyə yönəlmiş və heç bir beynəlxalq aktorla ziddiyyətə getmədən "Bandunq Prinsipləri"nin təşviqinə köklənmiş siyasət sərgiləyib. Sədrliyin böyük bir hissəsinin COVID-19 pandemiyasının yayılmasının intensiv dövrünə təsadüf etməsinə baxmayaraq, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Qoşulmama Hərəkatının sədri qismində irəli sürdüyü qlobal əhəmiyyətli təşəbbüslər sayəsində mövcud çağırışlar yeni əməkdaşlıq imkanlarına çevrilib. Azərbaycan, həmçinin Hərəkatın təsisatlandırılması istiqamətində mühüm addımlar ataraq, dövlət başçısının təşəbbüslərinə uyğun olaraq Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsi və Gənclər Təşkilatını yaradıb.

### "YAŞIL GÜNDƏLİYİMİZ HƏLƏ COP29 QƏRARINDAN ƏVVƏL İCRA OLUNMAĞA BAŞLANIB"

Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir. Bildiyimiz kimi, yaşıl enerjinin inkişafı və yaşıl enerjinin dünya bazarlarına çıxışı Azərbaycanın enerji siyasətinin prioritetləri sırasındadır.

"Biz həmin ehtiyatların ölkənin inkişafına, yoxsulluğun və işsizliyin azaldılmasına, yaşıl gündəliklə bağlı tutduğumuz hədəflərə yönəldilməsinə görə dəyərləndirilməliyik" - deyə Azərbaycan Prezidenti bildirib ki, neft və qazımız, həmçinin Avropa bazarlarına hələ uzun illər ərzində lazım olacaq: "2022-ci ildə Avropa İttifaqı və Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb və bizim Avropa İttifaqına təbii qaz təchizatımız artmaqdadır. Bu, Avropa Komissiyasının xahişi idi. Biz buna müsbət cavab verdik. Hazırda təbii qaz ixracımızın yarısı, xüsusən də 12 milyard kubmetri Avropa İttifaqının bazarına gedir. Qeyd edilən Memoranduma əsasən, 2027-ci ilə qədər Avropa İttifaqına ixracımız 20 milyard kubmetrə çatmalıdır".

Yaşıl gündəliyimizin isə hələ COP29 qərarından əvvəl icra olunmağa başlanıb. Bildiyimiz kimi, 2024-cü il Azərbaycan Prezidenti İlham Əliyevin məlum Sərəncamı ilə Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Prezident İlham Əliyevin 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etməsi Azərbaycanın davamlı inkişaf istiqamətindəki qlobal səylərə olan sadiqliyinin daha bir ifadəsidir.

Azərbaycan Prezidenti İlham Əliyevin nümayiş etdirdiyi güclü siyasi iradə və Şərqi Avropa Qrupunun üzvü olan dövlətlərin Azərbaycanın COP29-a ev sahibliyi etmək üçün ölkəmizin namizədliyini dəstəkləməsi uğurumuzda mühüm əhəmiyyət kəsb edir.

### "ƏRAZİ BÜTÖVLÜYÜMÜZÜ HƏRBİ-SİYASİ YOLLARLA TƏMİN ETDİK"

Azərbaycan Prezidenti bəyanatla çıxışında regional təhlükəsizlik məsələsinə toxunaraq Azərbaycan ilə Ermənistan arasında gedən sülh danışıqlarını yüksək qiymətləndirdiyimizi diqqətə çatdırıb.Azərbaycanın 2020-ci ildə öz suveren ərazisinin böyük hissəsini işğaldan azad etdiyini və keçən ilin sentyabr ayında isə suverenliyini tam bərpa etdiyini bildirib: "Bu gün Azərbaycanın ərazi bütövlüyü tam bərpa edilib. Təbii ki, bu, tarixi nailiyyətdir və onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmaq fikrində deyildi. Biz beynəlxalq hüququn norma və prinsiplərini əsas tutaraq, BMT Nizamnaməsinin 51-ci maddəsinə söykənərək öz ərazi bütövlüyümüzü hərbi-siyasi yollarla təmin etdik".

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli istiqamətində dövlət başçımız yorulmadan səylər göstərmiş, danışıqlar aparmışdır. Azərbaycan tərəfi regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin bərqərar olması istiqamətində, Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli istiqamətində ardıcıl addımlar atmışdı. Münaqişənin həlli üçün hüquqi və siyasi addımlar beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarına əsaslanırdı. BMT Təhlükəsizlik Şurası düşmənçilik aktlarının dərhal dayandırılmasını, işğalçı qoşunların Azərbaycan Respublikasının bütün işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdi. Qətnamələrin heç biri Ermənistan tərəfindən yerinə yetirilmədi. 2020-ci ilin 10 noyabr tarixində Ermənistan məcbur olub kapitulyasiya aktına imza atdı. 44 günlük Vətən müharibəsində Zəfər tariximizi yazaraq erməni işğalında olan torpaqlarını azad edən Azərbaycan yeni dövrünə qədəm qoydu. Azərbaycan yeni reallıqlar yaradaraq işıqlı, daha uğurlu bir yola qədəm qoyub.

### "BU GÜN TORPAQLARIN BƏRPA EDİLMƏSİ DƏ ÜMUMXALQ MƏSƏLƏSİDİR"

44 günlük Vətən müharibəsində Azərbaycan tarixi ədaləti bərpa edərək, 30 ilə yaxın işğal altında olan torpaqları düşmən tapdığından azad etdi. Bu gün işğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. İşğaldan azad olunan ölkəmizin inkişafı istiqamətində həyata keçirilən layihələr öz nəticəsini verir. İnkişaf və tərəqqi dövrünü yaşayan Azərbaycanın işğaldan azad olunan ərazilərində həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat ölkənin əsas inkişaf göstəricilərídir.

Azərbaycanın iqtisadi gücü işğaldan azad olunan ərazilərdə yeni həyatın başlanmasına imkan verir. "Müharibədən cəmi üç il yarım vaxt keçib, artıq 6 min keçmiş köçkün öz dədə-baba torpağına qayıdıb və bu proses davam etdirilir. Bu ilin sonuna qədər 20 min köçkün qayıdacaq və hər qayıdan insan Azərbaycan Ordusuna, Azərbaycan rəhbərliyinə minnətdarlıq hissi ilə qayıdır, şəhidlərə Allahdan rəhmət diləmək sözləri ilə qayıdır. Bu, ümumxalq məsələsidir. Necə ki, torpaqlarımızın azad edilməsi ümumxalq məsələsi idisə, bu gün torpaqların bərpa edilməsi də ümumxalq məsələsidir".

*Nəzakət ƏLƏDDİNQIZI*

# İranın atom bombası: real, yoxsa xəyali təhlükə?




**İranın atom bombası yaratmaq üçün kifayət qədər zənginləşdirilmiş urana sahib olmasına "aylar yox, həftələr" qalıb. Bunu Beynəlxalq Atom Enerjisi Agentliyinin (MAQATE) baş direktoru Rafael Qrossi deyib. Onun sözlərinə görə, İranda uranın zənginləşdirilməsi səviyyəsi demək olar ki, nüvə silahı yaratmaq üçün lazım olan səviyyəyə çatıb və bu, narahatlıq doğurur.**




Bununla belə, Qrossi əlavə edib ki, İranın artıq belə silahlara malik olduğu qənaətinə gəlmək mümkün deyil. MAQATE rəhbərinin sözlərinə görə, işlək nüvə başlığının yaradılması zənginləşdirilmiş uranın istehsalı ilə yanaşı, bir çox başqa şeyləri- məsələn, sınaqları tələb edir. Bir jurnalistin İranın effektiv şəkildə nüvə silahı inkişaf etdirməsi və MAQATE-nin bundan xəbəri olmadığı haqda sualına Qrossi cavab verdi ki, məlumat çatışmazlığı səbəbindən bu barədə danışa bilməz.

"Aylarla deyil, həftələrlə" çox ciddi ifadədir. Xüsusən də, planetin əsas "nüvə" rəsmisi bunu bəyan etdikdə. Söhbət Azərbaycanın ən yaxın qonşusundan getdiyini və bir müddət əvvəl İsrailin Dəməşqdəki SEPAH qərargahına zərbə endirməsindən sonra İran parlamentinin deputatlarından birinin cavab qisas forması kimi İsrailin Bakıdakı səfirliyinəin bombalanmasını təklif etdiyini nəzərə almamaq mümkün deyil. İranda atom silahı yaradılarsa, İsraili və ya Azərbaycanı nə gözləyə bilər, bunun artıq izaha ehtiyacı yoxdur. Amma sual budur ki, dünya bu ölkədə nüvə raketinin yaradılmasının qarşısını hansısa yolla ala bilərmi?

Əcnəbi ekspertlər bu haqda fikirlərini Caliber"Az-la bölüşüblər. Ekspertlərin şərhini oxuculamıza təqdim edirik.

İsrailli jurnalist və iranşünas tədqiqatçı Maykl Borodkinin dediyi kimi, dünya təbii ki, hərəkətə keçib İranı bu layihədən imtina etməyə razı sala bilər.

"Biz xatırlayırıq ki, İran hakimiyyəti nüvə silahı əldə etmək qərarına necə gəlib, çünki onlar bu silahları sağ qalmalarının təminatı hesab edirlər. Əgər dünya Tehranı inandıra bilsəydi ki, nüvə silahına can atmaq qaçılmaz olaraq onun süqutuna gətirib çıxaracaq, məsələn, şərtlərə əməl edilmədiyinə görə qaçılmaz güc tətbiqi təhlükəsi ilə dəstəklənən ən sərt sanksiyalar tətbiq edilərdi, amma İran hərbi nüvə proqramını məhdudlaşdırarsa ona qarşı sanksiyaları tamamilə ləğv etməyə hazır olduğunu nümayiş etdirməklə yanaşı, ona ən azı sanksiyalardan möhlət verə bilərdi",- deyə tədqiqatçı hesab edir.

Lakin dünya əvvəlcə bu təhlükəni ciddi qəbul etmədi, o qeyd edir.

"Nə Qərb ölkələri arasında, nə də xüsusilə Rusiya və Çində İranın nüvə proqramı ilə bağlı fikir birliyi olmayıb və bu problemin həlli üçün vahid qəti mövqe lazımdır. İndi isə bu mümkün deyil",- iranlı ekspert hesab edir.

Öz növbəsində, iranlı politoloq, Rusiya-İran münasibətləri üzrə mütəxəssis Əmir Məhəmmədi Çahaki qeyd edib ki, İran və İsrail arasında bir neçə həftəlik gərginliyin artmasından sonra müzakirə mövzusu yaranıb- İslam Respublikası nüvə bombası yaratmaq texnologiyasını inkişaf etdirməklə xarici düşmənlərdən qorunmaq üçün öz taktika və strategiyasını dəyişmək niyyətindədirmi?

"Ancaq bu, necə deyərlər, sadəcə bir versiyadır. Ruhani lider, Ali Baş Komandan Ayətullah Xamenei və İran rəhbərliyinin nüvə silahından imtina taktikasını dəyişməsi iddiasını əsaslandıracaq yeni heç nə baş verməyib.

Təbii ki, nüvə silahı yaratmaq üçün İranın müəyyən miqdarda zənginləşdirilmiş uranı var ki, bu da atom bombası ehtimalına yaxındır. Amma bu nüvə silahının yaradılması xəbəri deyil. Bu, çoxdan məlumdur və məncə, Tehran Amerika bu sazişdən çıxdığı üçün "nüvə sazişi"nin protokoluna əməl etməyəcəyini demək olar ki, açıq şəkildə bildirdi. MAQATE-nin baş direktoru sadəcə xəbərdarlıq edir. Bununla belə, o deyir ki, mövcud məlumat İranın nüvə bombasına malik olmadığına zəmanət vermir", - Çahaki bildirir. O hesab edir ki, Qrossinin sözləri ciddi qəbul edilməlidir.

"Yeri gəlmişkən, aydındır ki, məsələn, Azərbaycanda onlar buna başqa cür baxırlar və bütün bunları təhlükə kimi qəbul edirlər. Ancaq bir növ realist yanaşmamız lazımdır. Aprelin 1-də İsrail beynəlxalq konvensiyalara əməl etmədiyini nümayiş etdirərək, digər dövlətin ərazisi sayılan İranın Dəməşqdəki konsulluğuna birbaşa hücum edib. Təbii ki, İranla İsrail arasında problemlər illərdir davam edir. Amma Tehranın bu zərbəyə reaksiyası, məncə, proqnozlaşdırıla bilən idi. Baxmayaraq ki, İsrail tam olaraq bu cavabı gözləmirdi. İndi də Təl-Əviv və Tehran açıq şəkildə nümayiş etdirirlər ki, yaranmış münaqişəni inkişaf etdirmək istəmirlər.



Qrossinin dediyi kimi, atom bombası yaratmaq o qədər də asan deyil. Testlər əvvəlcə tamamlanmalıdır. Və bu baş verərsə, İranın dünya ictimaiyyəti qarşısında reputasiyası çox pisləşəcək. Daha da böyük təcrid olacaq. Ona görə də mən düşünmürəm ki, Tehran indi nüvə bombası yaratmaq istiqamətində dəqiq kurs tutmuşdur",- politoloq bildirib.

O, həmçinin əlavə edib ki, MAQATE direktoru İranın planları haqqında tam dolğun məlumata malik olmadığını deyirsə, bu, Mossad, CIA, SVR və ya MI6-nın belə məlumatlara malik olmadığı anlamına gəlmir.

"Biz başa düşürük ki, Qərb dünyasının bütün təhlükəsizlik xidmətləri İran daxilində istənilən hərbi əməliyyatı çox diqqətlə izləyir. Casus şəbəkələri var, texnoloji imkanlar var. Hesab edirəm ki, bu halda biz daha bir təbliğat təzahürü ilə qarşılaşırıq. Tehran başa düşür ki, nüvə texnologiyasının hərbi inkişafını davam etdirmək qərarı çox avantürist olardı. Hələlik deyə bilərik ki, İran daxilində belə bir təhlükə yoxdur və heç nə dəyişməyib. İran nüvə bombası yaratmayacağını rəsmən bəyan edib və fikrimcə, bu müddəa hələ də qüvvədədir", - Çahaki bildirib.

***Tərcümə - Elçin Bayramlı***

## "Nar" rabitə sahəsinin peşəkarlarını hazırlayır




Sərfəli qiymətləri və hər kəsə uyğun təklifləri ilə tanınan "Nar" təhsil istiqamətində uzunmüddətli sosial layihələrinə davam edir. Azərbaycanın mobil rabitə sahəsinin yerli peşəkarlara dayanaraq inkişaf etməsi üçün "Nar" Azərbaycan Texniki Universitetinin (AzTU) tələbələri üçün mobil rabitə təlimlərini davam etdirir. "Nar" və Azərbaycan Texniki Universitetinin (AzTU) 10 ilə yaxındır ki, davam edən əməkdaşlığıçərçivəsində universitetin texniki istisaslar üzrə təhsil alan tələbələri "Nar" texniki heyətinin təşkil etdiyi rabitə təlimlərində iştirak edir, "Nar" laboratoriyasında əyani dərslər keçir və "Nar"ın təcrübə proqramına qoşulur. Qeyd edək ki, "Nar"ın texniki heyəti yerli peşəkarlardan formalaşır və bu tendensiyanı qorumaq məqsədilə, "Nar" ilin əvvəlində daha bir texniki istiqamətdə ixtisaslaşmış ali təhsil müəssisəsi - Gəncədə yerləşən Azərbaycan Texnologiya Universiteti ilə əməkdaşlığa başlayıb. "Nar"ın həyata keçirdiyi sosial layihələr haqqında ətraflı məlumatı operatorun rəsmi saytından (nar.az) əldə edə bilərsiniz.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.



Elçin Bayramlı

## Yol terrorunun qarşısını almağın ən asan yolu

**Son vaxtlar yollarda, küçələrdə ağır qəzalara səbəb olan kobud qayda pozuntularının və avtoşluq hallarının sayı artır. Bunun səbəbləri haqda çox yazılıb, çox danışılıb, lakin hələ də bu problemin həlli ilə bağlı ciddi irəliləyiş əldə olunmayıb. Əsas səbəb əlbəttə, qaydalara qəsdən riayət edilməməsi, sərxoş halda avtomobil idarfə edilməsi, sürət həddinin aşılmasıdır. Lakin burada çox sayda başqa səbəblər də var- yol infrastrukturunun bəzi yerlərdə təhlükəli olması, sürücünün yorğunluğu, avtomaşınların texniki vəziyyətinin yaxşı olmaması, sürücülərin qeyri-peşəkarlığı və s.**

Ağır qəzaların səbəblər arasında, ən əsası sürət həddinin aşılmasıdır. Xüsusən də, şəhərlərarası yollarda avtomobillər, hətta avtobusların çoxu yolverilən sürət həddini xeyli dərəcədə keçir. Məqsəd məsafəni daha tez qət etmək və qısa vaxtda daha çox gəlir əldə etməkdir. Nəinki mikroavtobusda, hətta iri avtobusların da 110-la getdiyim yolda saatda 150 ilə yanımdan şütüyüb keçməsinin şahidi olmuşam. Halbuki, avtobusların 90 km/saat-dan artıq sürətlə getməsi qadağandır.

Ən dəhşətlisi orasıdır ki, 50 nəfər daşıyan avtobusun sürücüsünə sərnişinlərdən heç kim irad bildirmir, normal sürətlə sürməsini tələb etmir. Çünki onlar da mənzilbaşına mümkün qədər daha tez çatmağa çalışırlar. Burada sürücü və sərnişinlər arasında yazılmamış qanun, gizli razılaşma var sanki. Bax bu sürətli həyat tərzi əksər faciələrin səbəbkarıdır.

21-ci əsrdə "sürət əsri" ifadəsi avtomobili yolverilən həddən yüksək sürətlə idarə etmək deyil. Bəziləri bu ifadəni səhv başa düşüblər və bu səhv də onlara həyatları bahasına başa gəlir. Həm də təkcə özlərinin yox, günahsız başqalarının da...

Mikroavtobuslarda isə vəziyyət daha təhlükəlidir. Bu maşınlar magistrallarda 150 km/saat-dan yuxarı sürətlə gedirlər. Bəzən isə 180-200 km/saat sürətlə. Halbuki, bu yolların infrastruktru 120 km/saatdan yuxarı sürət üçün uyğun deyil və bu, aşkar qəza deməkdir.

Problemlərdən biri yük maşınlarının sürücüləri ilə bağlıdır. Onlar da əksər yol hərəkəti qaydalarına riayət etmir, yüksək sürətlə sürürlər. Çünki işlədikləri şirkət qarşılarına daha tez və daha çox işləmək tapşırığı qoyur, bəzən sutkada 15-16 saat sükan arxasında olurlar. Üstəlik, bu maşınlar əksər hallarda icazəverilən normadan 2-3 dəfə artıq yüklənir ki, bu da potensial ölüm maşını deməkdir. Onsuz da bu avtomaşınların əksəriyyətinin texniki vəziyyəti ideal deyil.

Sürücülərin yorğunluğu da qəzaların səbəbləri arasındadır. Ekspertlərin rəyinə görə, uzun yola çıxanda göz və beyin yorulur və sürücünü yuxu tutduğuna, ən azı beyin reaksiyaların ciddi şəkildə azalmasına görə, hər iki saatdan bir dayanıb istirahət etməlidir. Sürücülərin çoxu buna fikir vermir. 6-7 saatlıq yolda maksimum bir dəfə dayanırlar- o da, məcburən-yemək üçün.

Daha bir səbəb isə qeyd etdiyimiz kimi, yol infrastrukturu ilə bağlıdır. Düzdür, son dövrlərdə ölkəmizin əksər avtomobil yolları yenidən qurulub və standartlara cavab verir, lakin hələ də təhlükəli yollar var.

Bu səbəblərdən, ölkəmiz avtoqəzaların, qəzalarda ölümlərin sayına görə dünyada öncül yerlərdədir. Bütün bu səbəblər aradan qalxmayınca, belə faciələrin də ardı-arası kəsilməyəcək.

O ki qaldı avtoşluq hallarına, son dövrlər cəzaların sərtləşdirilməsinə baxmayaraq bu problem hələ də aradan qalxmayıb. Əslində isə, problemin həlli çox asandır. Bu barədə hələ uzun illər əvvəl təkliflərimi irəli sürmüşəm. Bu yazıda da təkrar edirəm- avtoşluq edən şəxslərin avtomobilləri müsadirə edilməli, özləri isə ən azı 10 il müddətinə sürücülük hüququndan məhrum edilməlidir.

Təcrübə göstərir ki, istənilən problemin həlli radikal tədbirlərdən, sərt cəzalandırmadan asılıdır. Avtoşluq halı qəsdən başqalarının həyatlarını təhlükə altına qoymaq və bir çox hallarda isə onların ölümünə səbəb olmaqdır. Buna görə də cəza adekvat olmalıdır və yuxarıda dediyim cəza növləri tətbiq edilsə heç kim belə bir hərəkət etməz. Nəticədə çox asan yolla bu problem birdəfəlik aradan qalxmış olar.

# Sizə Bakıdan danışım...



***H**aqqında danışacağım şəhər bizə çox yaxındır, yaşadığımız, hər gün sübhü onunla açdığımız, Günəşi qüruba birgə yola saldığımız, müqəddəs Vətən torpağımıza təmas edən sinəsindən şırımlanan yollarla, küçələrlə, parklarla addımladığımız şəhərdir. Bizi evdən işə, işdən evə, yeni-yeni sabahlara, gələcəyə aparan, uşaqlığımızın, gəncliyimizin şahidi, yaşlılığımızın həmdəmi, xatirələrimiz, düşüncələrimiz, bir də ki qürurumuzun ünvanıdır, bu şəhər. Sizə haqqında danışacaqlarımı özü mənə danışan bu şəhər Bakıdır. Bəs o necə danışır? Bu barədə fikirlərimi sizinlə bölüşüm, siz də dinləyin. Hansı səbəbdəndir, bilmirəm, hər yerində onunla dialoq qura bilir, söhbətini dinləyirəm. O, danışır, mənə özündən danışır...*

## Bakı bir melodiyadır

Həm də sanki bu söhbətlərdə bir musiqi ritmi var, o, həzin bir melodiyaya çevrilib axır qulaqlarıma. Belə qənaətə gəlirəm ki, bu şəhər bir musiqi əsəridir. Sözləri də, bəstəsi də özünə aid bir musiqi əsəri. Bu əsərin adı isə "Danışan şəhər"dır. Bu melodiyanı əsrlər öncə Bakı dənizi də adlandırılan Xəzər sularında yaradıb, bəzən həzincə, bəzənsə dəlicəsinə dalğalanan sularında. Axı Xəzər Bakıya aşiqdir. Bəzən sevgisini həzin-həzin anladır, bəzənsə dəlicəsinə-küləklərini bu şəhərin üzgözünə təmas etdirməklə böyük bir məhəbbətindən bəhs edir. Xəzərin həm də bu şəhərə qısqanclığı var. Onu başqa sevənləri gördüyü an külələri ilə sanki qovur şəhərdən onları. "Bakı mənim-Xəzərindir",- deyir. Dinləyin, bu bir məhəbbət simfoniyasıdır. Bu simfoniya gözlərimiz önündə əsrlərdir, bir dənizin bir şəhərə sevdasından danışır. Bu sevginin tarixi 5 min ildən artıq bir zamana bağlıdır.

## Qədim Bakı

Bakı özündən danışır, Şərqin qocaman və ən böyük şəhərlərindən biri olduğundan, qədimliyindən... XII əsrdə Şirvanşahlar dövlətinin, XVI əsrdə Səfəvilər dövlətinin, XVII əsrdə Osmanlı imperiyasının, XVIII əsrdə Bakı xanlığının əsas şəhərlərindən biri olduğundan danışır. Onun haqqında ilk dəfə eramızdan 3500 il əvvəl birinci Misir Fironu Menesanın dövrünə aid əlyazmalardan, Abşeronda və Qobustanda 12 min il tarixi olan daş üzərində yazmalardan, arxeoloji tapıntılardan, eramızdan əvvəl I əsrdə Roma imperatoru Pompeyin və Lukullun Zaqafqaziyanın işğalı məqsədilə ətrafında-40 km cənub istiqamətində saldıqları hərbi düşərgələr barəsində Avqust Qay Oktavi tərəfindən yazılmış daş yazısından bəhs edir. Zığ gölü, Şüvəlan, Mərdəkan, Binəqədi, Əmircan yaşayış məntəqələrində III-I minilliklərə aid arxeoloji abidələrindən və bütün bunlara əsasən 5,5 mindən çox yaşı olduğundan danışır.

Bu şəhər köksündə 5-7 əsrlərə aid Sasani dəfinəsinin tapıldığından, bunun isə o dövrdə buranın yaşayış məntəqəsi olduğunu göstərdiyindən söhbət açır. Adının V-VI əsr mənbələrində Bağavan və Ataş-i Baquan, X əsr ərəb mənbələrində Bakuyə, Bakuh, Baku, XV əsr rus məxəzlərində Baka, Səfəvilər dövrü farsdilli mənbələrdə Badkubə kimi adlandırıldığını vurğulayır.

Qara qızıl şəhəri hələ erkən orta əsrlərdə iqtisadiyyatının əsasını təşkil edən neftdən, duzdan, Bakı və Abşeron bölgəsində becərilən boyaqotundan və dillər əzbəri zəfəranından söhbət açır. Coğrafiyasından, şimaldan-cənuba, qərbdən-şərqə gedən miqrasiya və ticarət yollarının kəsişməsində -"İpək Yolu" üzərində zəngin bir şəhər kimi tarixi mənbələrdə haqqında bəhs olunmasından danışır. İstehsal olunan məhsulların həm quru karvan yolları, həm də dənizlə uzaq Şərq ölkələrinə ixracının o dövrün feodal şəhərinin inkişafının mühüm amili olduğundan bəhs edir.

Bakı sanki Günəşdən qopan alov dilimlərindən, o alov dilimlərindən danışır ki, uzaq tarixdə bu yerlərə yolu düşən səyyahlar dönə-dönə Abşeronun "alov dilimləri" haqqında heyrətlə yazırdılar. Digər bir alov-şəhər yaxınlığında olan "dəniz daşından çıxan alov" barədə məlumat verirdilər. Dinləsəniz Bakını, o sizə X əsrin axırlarında Şirvanın əsas şəhərlərindən olduğundan, liman şəhəri kimi məşhurlaşdığından, XII əsrin birinci yarısında çəkilən qala divarlarından, Qız qalasından danışar...



## Abidələr şəhəri

Abidələr bu şəhərin hüsnünü bəzəyir, dünənindən xəbər verir, qədim tarixini təsdiqləyir. Bakı köksünə sığınan abidələrindən danışır, YUNESKO-nun Ümumdünya irsi siyahısına salınmış yaşayış məhəlləsi və tarixi-memarlıq qoruğundan- İçərişəhərdən, buradaaçıq havada yerləşən müxtəlif dövrləri əhatə edən 50-dən çox tarixi və memarlıq abidələrinin yaratdığı nadir muzeydən, qoruna-qoruna günümüzədək gəlib çatmış Şirvanşahlar sarayından, Qız qalasından, Sınıq Qala minarətindən danışır.

Qız qalasında faciəvi bir rəvayətə şahidliyini ürək ağrısı ilə vurğulayır. Xəzərin bu faciəyə göz yaşlarından yarandığından, o qızın fəthedilməz, sarsılmaz obrazından söhbət açır. Xarici turistlərin Bakıya gələrkən mütləq bu qədim abidənin tarixi ilə maraqlandıqlarını, buradan onun sevimli Xəzərini seyr etdiklərini deyir.

Tikintisi bütün XV əsr ərzində davam etdirilmiş, Azərbaycan memarlığının ən böyük abidəsi, bir çox tikililərdən ibarət bütöv bir memarlıq ansamblı olan, kompozisiya və planlaşdırılmasına görə dünyada analoqsuz Şirvanşahlar Sarayından qürurla danışır bu şəhər... Suraxanı qəsəbəsində yerləşən XVII əsrin atəşpərəstlər məbədi - Atəşgahdan, onun qaya üzərində qürurla dayanmasından, burada yerin altından çıxan qaz sayəsində min illərlə od yanmasından, bu odun istisinə yığışanlardan söhbət açır.

Köksünə yaxın bir yerə sığınan, 2007-ci ildə Qobustanın qayaüstü rəsmlərinin mədəni landşaftı YUNESKO-nun Dünya Mədəni irsi abidələri siyahısına salınan, ən qədim tarixi abidədən-özünün qayaüstü təsvirləri ilə dünyada məşhur olan Qobustandan da qürurla bəhs edir. Dövlət tarixi-etnoqrafik və bədii qoruğu olan Qobustanda Daş dövrünün və Azərbaycan xalqının tarixi keçmişinin şahidi olan Böyükdaş, Kiçikdaş, Cingirdağ, Sonqardağ və Sıxqayada çoxlu miqdarda qayaüstü təsvirlərin, düşərgələrin, insan məskənlərinin, baş daşlarının olduğunu vurğulayır. Böyükdaş ərazisində mezolitdən tutmuş orta əsrlərə kimi bütün dövrlərin abidələrinə rast gəlindiyindən danışır. Abşeronun "İçərişəhər"i adlandırılan Qaladan-buradakı qədim məscidlər, yollar, ovdanlardan, XV əsrə aid qədim qəbirstanlıqdan, hamamlar, bürünc dövrünə məxsus məskun yerlərin qorunub saxlanmasından bəhs edir. Bu şəhər qədim tarixi ilə qürur duyur, ondan fəxrlə söhbət açır...

## Qədimliklə müasirliyin harmoniyası

Bakının hər küçəsi, hər dalanı, hər xiyabanı bu şəhərin qədimliyi ilə müasirliyinin harmoniyasını özündə əks etdirir. Bu harmoniya ilə o, hüsnünün ilbəil, günbəgün naxışlanmasından, gözəlliyinə gözəllik qatmasından bəhs edir. Gözəlliklərin füsnunun rənglərini zənginləşdirməsini, artıq dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsini xüsusi bir vurğu ilə danışır Bakı.

Prezident cənab İlham Əliyevin paytaxtın simasının nəinki ildən-ilə, əslində, gündəngünə dəyişməsini, klassikliyini, milli memarlıq üslubunu qoruyub saxlamaqla müasirləşməsini yüksək dəyərləndirdiyini xatırlayır bu şəhər: "Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Bunu təkcə biz demirik. Bunu, demək olar ki, Bakıya gələn bütün qərəzsiz xarici qonaqlar deyir. Sözün əsl mənasında Bakı parlayan bir ulduzdur. Biz paytaxtımızı parklar, bağlar, ictimai zonalar şəhərinə çevirmişik. İndi yadınıza salın, əvvəlki dövrlərdə qanunsuz tikilmiş, bir-birinin içinə girmiş binalar həm orada yaşayanlara, həm də şəhər əhalisinə nə qədər əziyyət verirdi. İndi biz təmizlənmiş və sakinləri köçürülmüş yerlərdə ictimai zonalar yaradırıq, orada binalar tikilmir".

Dünəni ilə bu gününün müqayisəsində bəzi nüansları yada salır, sadalayır Bakı. Bir vaxtlar onu zəbt edib özününküləşdirənləri, harada nə gəldi tikənləri xatırlayır. Hələ bu tikintiləri aparmaq üçün köksündəki yaşıllıqları məhv edənləri daha yaxşı xatırlayır. Onları xatirə dəftərinə qeyd etdiyi ən pis anlar kimi yada salır. Ötən illərin mənzərəsində onlardan xilas olduğu üçün dualar edir. İndi icazə olmadan onun köksündə nə gəldi tikməkmi olar, hansısa bir ağacı məhv etməkmi olar?.. Artıq bunlar bu müasir şəhərin təkrarolunmaz keçmişidir.

## Bakı parlayan bir ulduzdur

Gündüzləri bir, gecələri min tamaşa olan bu şəhəri gəzin. Qədimliklə müasirliyin çiyinçiyinə mənzərəsində bu şəhər gecələr ulduztək parlayan bir şəhərdir. 162 metr hündürlükdə üçrəngli bayrağımızı dalğalandıran Dövlət Bayrağı Meydanından-qürur ünvanımızdan gəzintisinə çıxaq bu şəhərin. Dalğası, rəngləri Xəzərin sularına rəng qatan bayrağımızı seyr etdikcə onun kimi Qarabağda və Şərqi Zəngəzurda dalğalanan, gözəlliyini o torpaqlarda əks etdirən bayrağımızın bizlərə bəxş etdiyi Zəfərlə qürur duyuruq. Bu şəhərə bələdçi lazım deyil, çıxın qoynuna, o, özündən danışsın, siz qulaq asın. Üzərində bayrağımız əks olunan Alov Qüllələrinin gözəlliyinə tamaşa edin. Bu gözəlliyi seyr etmək ruhunuzu da gözəlləşdirir, deyir Bakı.

Milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin təbliği sahəsində həyata keçirilən layihələr arasında YUNESKO tərəfindən Bəşəriyyətin Şifahi və Qeyri-Maddi İrsinin şah əsərləri Siyahısına daxil edilən Beynəlxalq Muğam Mərkəzinə üz tutarkən buradan həmişəyaşar muğamlarımızın və ölməz sənətkarlarımızın səsləri duyulur, elə bu andaca Bakı muğamlar şəhərinə çevrilir. Qədim musiqini həzin-həzin axıdır ruhlara, o ruhları xalq musiqisi ilə bəzəyir.

Buradan müasir Bakının rəmzlərindən biri hesab olunan, müasirliyi və yeniliyi özündə təcəssüm etdirən unikal arxitektur quruluşa malik olan Heydər Əliyev Mərkəzinə üz tutaq. Azərbaycan xalqının Ümummilli Lideri, xilaskarının adını daşıyan bu mərkəz azərbaycançılıq məfkurəsindən, Heydər Əliyev irsindən, bu irsin dəyərindən söhbət açır. Şəhər sakinlərinin, gənclərimizin, qonaqlarımızın əvəzolunmaz ünvanı olan mərkəz həm də Bakının müasir görkəminə vurulan naxışdır. Bakı müasir görkəmində bağrına yeni bir şəhəri-"Ağ şəhəri" alan şəhərdir. Min bir rənginə bəyazı da qatan şəhər içindəki bu şəhər həm də gözəlliyinə gözəllik qatandır.

Bu şəhərdə son illərin ərməğanı olan Milli Gimnastika Arenası, Milli Olimpiya Stadionu, Su İdman Mərkəzi idmanın ayrı-ayrı sahələrinin inkişafına meydan açmaqla yanaşı, həm də bu şəhərin gözəl memarlıq bəxşişləridir.

Bakı muzeylər şəhəridir. Bu şəhərin tariximizin, mədəniyyətimizin, ədəbiyyatımızın saxlanc yerləri olan muzeylərinə, kitabxanalarına üz tutaq, əsrlərin yaddaşı hopmuş tarix, mədəniyyət səhifələri açılacaq önümüzdə, dəyərli ədəbiyyatçılar və ədəbiyyat nümunələri ruhumuzu oxşayacaqdır.

Bu şəhər köksündəki onlarla məktəblərdə, universitetlərində, kolleclərində yetişdirdiyi sabahın qurucularından, hətta xarici ölkələrdən bu elm ocaqlarında təhsil almağa gələn gənclərdən də hər zaman bəhs edir. Onların asudə vaxtlarını, istirahətlərini qoynundakı zəngin fondlu kitabxanaları, kinoteatr, kafe, park, xiyabanları, istirahət mərkəzləri ilə təşkil etməklə yenə də özündən söhbət açır.

Bir sözlə, bu şəhər sakinlərinin məftunu olduğu kimi, onu görənlərin, qoynuna sığınanların da xoş təəssüratlarının şəhəridir. İstirahət, gəzmək üçün hər il seçim edilən, mətbəxi zəngin, sevilən şəhərdir. Hər yerdə rast gəlinməyən, min illərlə yaşı olan, keçmişinə sadiq, bugünkü müstəqil, Zəfərli ölkəsində var olan, yaşayan, gündən-günə gözəlləşən, bir də ki bütün bunları özü danışan şəhərdir

***Mətanət Məmmədova***

# Zamana sığmayan Lider:
## Heydər Əliyevin idarəçilik və varislik fəlsəfəsi

### Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanovun bu adda kitabı indiki və gələcək nəsillərin tariximizin Ulu Öndər mərhələsinin öyrənilməsi üçün zəngin mənbədir






”Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Biz onun və bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının arzusunu çin etdik.” Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev ötən il ”Heydər Əliyev İli” çərçivəsində Ulu Öndərin 100 illiyi münasibətilə Qarabağın tacı Şuşadan xalqa müraciətində bu fikirləri səsləndirməklə həm Heydər Əliyevin arzularının reallığa çevrildiyini, həm də Onun düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində yaratdığı möhkəm təməl üzərində şah əsəri olan müasir müstəqil Azərbaycanın Zəfərə qovuşduğunu diqqətə çatdırdı. Bu gün güclü, qüdrətli, ərazi bütövlüyü və suverenliyi tam təmin olunan Azərbaycanla qürur duyuruq. Təbii ki, bu uğurlar Heydər Əliyev siyasətinin təntənəsidir. Ümummilli Lider Heydər Əliyevin fikirlərinə istinad etsək, dahi şəxsiyyət bildirmişdir: ”Nə qədər ki Azərbaycan var mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!” Ümummilli Liderin bu fikirləri Onun Azərbaycan üçün gördüyü işlərlə bərabər, uzaqgörənliyinin təqdimatıdır. Belə ki, 2003-cü ildə xalqa tarixi müraciəti Ümummilli Lider Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısındakı mühüm xidmətləri sırasındadır. 2003-cü ildən Heydər Əliyev yolunun uğurlu davamı Azərbaycanın möhtəşəm uğurlarla imza atmasını şərtləndirdi. 2003-cü ildə xalqın böyük əksəriyyətinin səsini qazanaraq Prezident seçilən cənab İlham Əliyev andiçmə mərasimində Ümummilli Lider Heydər Əliyevə bu müraciəti etdi ki, əsəriniz olan Azərbaycana yeni-yeni zəfərlər qazandıracağıq.

Ulu Öndər Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərinə həsr olunan saysız-hesabsız kitablar çap olunub, elmi məqalələr yazılsa da yenə də yeni nəşrlərə, araşdırmalara böyük ehtiyac duyulur. Çünki dahi şəxsiyyətin fəaliyyətinin hər bir sahəsi bir tədqiqat mövzusudur.

Bu nəşrlər sırasında Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanovun ”Zamana sığmayan Lider: Heydər Əliyevin idarəçilik və varislik fəlsəfəsi” kitabı özünəməxsusluğu ilə diqqət çəkir. Kitabda Heydər Əliyevin görkəmli dövlət xadimi və Ümummilli Lider zirvəsinə yüksəlməsinin mərhələləri elmi əsaslarla şərh edilmişdir. Hər zaman qeyd etdiyimiz kimi, dövlət qurmaq, müstəqil yaşamaq hər xalqa nəsib olmur. Azərbaycan xalqı xoşbəxt xalqdır ki, adı dövlətçiliyin simvoluna çevrilən Heydər Əliyev kimi Ümummilli Lideri vardır. Bu fakt da inkaredilməzdir ki, tarixi şəxsiyyətlərin ideyaları daim ölkənin tərəqqisində, gələcəyə inamla addımlamasında bir mayak rolunu oynayır. Heydər Əliyevin ideyaları Azərbaycanın dünəninin, bu gününün və gələcəyinin əsasıdır. Sadiq Qurbanovun müəllifi olduğu ”Zamana sığmayan Lider: Heydər Əliyevin idarəçilik və varislik fəlsəfəsi” kitabı bu ideyaların reallığa çevrilməsi fonunda Azərbaycanın hər kəsi heyrətləndirən uğurlara imza atdığını əsaslı şəkildə diqqətə çatdırır. Bu nəşr Ümummilli Liderin Azərbaycan üçün gördüyü işlərin zamana sığmadığını nümayiş etdirir, hələ bundan sonra neçə illər keçsə belə yenə də yeni nəşrlərin çapına ehtiyacın olacağına çağırış edir. Azərbaycanın hər bir uğuru dahi şəxsiyyət Heylər Əliyevin adı ilə bağlıdır. Sözügedən kitabın müəllifi bu məqamları əsaslı şəkildə şərh edərək oxuculara çatdırır. Bu nəşrlər o dövrü görməyən, o dövr haqqında məlumatı olmayan gənclərin Azərbaycan tarixinin Heydər Əliyev mərhələsinin daha dərindən öyrənilməsinə yardımçı olan zəngin mənbədir.

Sadiq Qurbanov sözügedən kitabı vasitəsilə əvvəldə də qeyd etdiyimiz kimi, Ümummilli Liderin müəllifi olduğu azərbaycançılıq ideologiyasının inkişaf etdirilməsi və təbliği istiqamətində görülən işlərin ümumi mənzərəsini təqdim edir. Müəllif bildirir ki, bu ideologiyanın əsas tərkib hissəsi olan dilimizin, tariximizin, milli-mənəvi dəyərlərimizin qorunması, inkişaf etdirilməsi əsas prioritetlər sırasındadır. Bu gün belə bir reallıq beynəlxalq səviyyədə də təsdiqlənir ki, Azərbaycan ənənələri olan dövlətdir. Milli-mənəvi dəyərlərimizin, tariximizin qoruyucusu olan Ümummilli Lider Heydər Əliyev dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı bir araya gətirdi, diaspor quruculuğunu dövlət siyasətinin əsasına çevirdi. Ümummilli Liderin həyat və fəaliyyəti ilə bağlı olan bu nəşrdə dahi şəxsiyyətin müəllifi olduğu azərbaycançılıq ideologiyası sözün əsl mənasında möhkəmməl milli birlik platforması kimi təqdim edilir.

Diqqətə çatdırılır ki, dahi şəxsiyyətin zəngin idarəçilik fəlsəfəsi Azərbaycanı müstəqilliyimizin bərpasının ilk illərinin xaosundan, anarxiyasından, iqtisadi böhranından xilas etdi. Bu idarəçilik, həmçinin Azərbaycanın iqtisadi və siyasi mövqeyinin möhkəmləndirilməsini şərtləndirən neft strategiyasının həyata keçirilməsinə yol açdı. O da vurğulanır ki, dahi rəhbər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurları bu gün Azərbaycanın etibarlı, arzuolunan tərəfdaş kimi mövqeyinin möhkəmləndirilməsində, ölkəmizin bərpaolunan enerji mənbələrinə investisiyaların cəlb edilməsində aydın ifadəsini tapır.

Kitabda son 20 ildə Prezident İlham Əliyevin ölkəmizin tərəqqisi naminə gördüyü titanik işlər, Azərbaycanı Ümummilli Lider Heydər Əliyevin görmək istədiyi Azərbaycan səviyyəsinə yüksəlməsi geniş yer alır. Bir sözlə, Sadiq Qurbanov ”Zamana sığmayan Lider: Heydər Əliyevin idarəçilik və varislik fəlsəfəsi” əsərində Azərbaycanın bütün bu reallıqlarını elmi əsaslara söykənərək oxucularına çatdırır.

Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının 2024-cü ilin Dövlət Mükafatlarına təqdim olunan işlərin siyahısında yer alan Sadiq Qurbanovun ”Zamana sığmayan Lider: Heydər Əliyevin idarəçilik və varislik fəlsəfəsi” adlı elmi monoqrafiyasına dəstəyimi bildirir və uğurlu nəticə qazanacağına inanıram.

***Südeif İmamverdiyev***
***Tibb elmləri doktoru, əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, ”91-lər”in üzvü, YAP Veteranlar Şurasının üzvü.***



## YAP Təftiş Komissiyasının iclası keçirilib

**Aprelin 30-da Yeni Azərbaycan Partiyası (YAP) Təftiş Komissiyasının növbəti iclası keçirilib. YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova iclasın gündəliyi və müzakirəyə çıxarılan məsələlər barədə məlumat verib.**

İclasda partiyanın 29 dekabr 2022-ci il və 1 mart 2023-cü il tarixli qərarlarına əsasən partiyanın Naftalan, Göygöl, Oğuz, Qax, Samux, Şəki, Balakən, Kəlbəcər, Qəbələ, Xızı, Zaqatala, Kürdəmir, Ucar, Cəlilabad, Daşkəsən, Sumqayıt, Mingəçevir, Şuşa, Astara, Qazax, Qobustan, İsmayıllı, Qubadlı, Abşeron, Ağsu, Gəncə, Şamaxı, Gədəbəy, Qusar, Siyəzən, Ağstafa, Xaçmaz, Masallı, Şabran, Quba, Biləsuvar, Tovuz, Salyan, Yevlax, Şirvan, Yardımlı, Zəngilan, Neftçala, Göyçay, Şəmkir, Hacıqabul, Ağdaş, Lənkəran rayon və şəhər təşkilatlarında aparılmış yoxlamaların nəticələri ilə bağlı qərarların icra vəziyyəti və cari məsələlər müzakirə olunub.

YAP Təftiş Komissiyasının üzvləri gündəlikdə duran məsələlərə münasibət bildiriblər. Müzakirələrdən sonra gündəliyə çıxarılan məsələlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

## “Trendyol” Azərbaycanda haqsız rəqabət yaradırmı?

MÜNASİBƏT

**“Düşünmürəm ki, ”Trendyol” hazırda haqsız rəqabət aparır”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Eldəniz Əmirov deyib.**

O bildirib ki, haqsız rəqabətin aparılması, ümumiyyətlə, rəqabətin bərqərar olması üçün ölkəmizdə aidiyyəti qurum tərəfindən bütün proseslərə nəzarət olunur: ”Sadəcə ”Trendyol”un bu istiqamətdə ciddi bazar payına sahib olması, hökmran mövqeyə malik olması onun haqsız rəqabət aparması anlamına gəlmir. O ki qaldı haqsız rəqabətin nəyə əsasən müəyyən edilməsinə, nəzərinizə çatdırıram ki, bununla bağlı rəqabət məcəlləsi təsdiq edilmiş, qüvvəyə minmişdir.




Rəqabət məcəlləsi 2024-cü il iyulun 1-dən qüvvəyə minir və qanunun qüvvəyə mindiyi gündən ”Antiinhisar fəaliyyəti haqqında”, ”Haqsız rəqabət haqqında”, ”Təbii inhisarlar haqqında” Azərbaycan Respublikası Qanunları ləğv edilir. 12 fəsil, 84 maddədən ibarət olan Rəqabət Məcəlləsi Azərbaycan Respublikasında azad və sağlam rəqabətin təmin olunması, qorunması və inkişafının ümumi əsaslarını, rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarətini, rəqabət sahəsində tənzimlənməni, təbii inhisarlarla bağlı dövlət tənzimlənməsinin təşkilati və hüquqi əsaslarını, bazar subyektlərinin hüquqlarını və vəzifələrini, habelə rəqabət qanunvericiliyinin pozulmasına görə məsuliyyəti müəyyən edir, sahibkarlıq fəaliyyəti daxil olmaqla iqtisadi fəaliyyətin ədalətli üsullarla aparılmasına hüquqi zəmin yaradır.

Məcəlləyə əsasən Bazar subyektləri tərəfindən rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarəti rəqabət orqanı tərəfindən həyata keçirilir. Rəqabət orqanı dedikdə rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarətini həyata keçirən, dövlətin rəqabət siyasətinin formalaşdırılmasında iştirak edən və həmin siyasətin həyata keçirilməsini, habelə rəqabət sahəsində tənzimlənməni təmin edən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) başa düşülür. Məcəllə ilə təbii inhisar fəaliyyəti sahələri, təbii inhisar subyektlərinin fəaliyyətinin dövlət tənzimlənməsi və onların fəaliyyətinə rəqabət orqanı tərəfindən dövlət nəzarəti məsələləri müəyyən edilmişdir. Artıq bu tipli proseslər bilavasitə bu məcəllə vasitəsilə tənzimlənəcəkdir”.

***Söylü Ağazadə***

# Heydər Əliyevin böyük şəxsiyyət obrazı bizə və gələcək nəsillərə örnəkdir

**Bu günki müstəqil, qüdrətli, suverən Azərbaycan Respublikasının keçdiyi inkişaf yoluna, tarixinə nəzər yetirdikdə bəlli olur ki, bu uğurlar heç də asan bir şəkildə başa gəlməyib. Təbii ki, bu uğurların kökündə vətənini öz həyatından, canından çox sevən bir lider amili, eyni zamanda öz liderinə güvənərək bütün çətinliklərə sinə gələn məğrur xalq dayanır. Ölkəmizin tarixin siyasət səhnəsində yüksəlişi, formalaşması, söz və nüfuz sahibinə çevrilməsi, dünyada etibarlı dövlət kimi tanınması bilavasitə Ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərinin nəticəsidir.**

Azərbaycanın milli mənəvi dəyərlər sistemini, dövlətçiliyini, adət-ənənələrini, dilini, tarixini, mədəniyyətini özündə birləşdirən və vəhdət yaradan azərbaycançılıq ideologiyasını daim yüksək tutan, bu amal uğrunda mübarizə aparan Ulu Öndərin bütün fəaliyyəti ölkəmizin inkişafına və tərəqqisinə yönəlmişdir. Dahi şəxsiyyətin hələ 1969-cu ildə Azərbaycana rəhbər təyin olunarkən gördüyü işlər, həyata keçirdiyi tədbirlər ölkəmizin inkişafı yolunda başlanğıcın təməlləri idi. O dövrdə bütün çətinliklərə rəğmənmilli kadrların yetişdirilməsinin planlı şəkildə həyata keçirməsi, gənc azərbaycanlı zabitlərin hazırlanması üçün geniş imkanlar yaratmış Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması, istedadlı azərbaycanlı gənclərin xaricdə təhsil almaları üçün göndərilməsi, Azərbaycanda şəhərsalma, sənaye müəssisələrinin genişləndirilməsi, kənd təsərrüfatının inkişaf etdirilməsi,tikinti işlərinin davamlı şəkildə həyata keçirilməsi, yolların çəkilməsi və digər sahələrdə yeni infrastrukturun yaradılması məhz dahi rəhbərin əvəzsiz xidmətlərindən idi.

Ümummilli liderimizin 1969-1982-ci illərdəki fəaliyyətinə nəzər yetirdikdə aydın olur ki, dahi şəxsiyyət hələ o dövrdə respublikaya rəhbərlik etdiyi vaxtlarda ölkəmizdə qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsinə, strateji əhəmiyyətli sənaye və istehsal müəssisələrinin inşasına nail olmaqla Azərbaycanın iqtisadi inkişaf göstəricilərinə görə keçmiş İttifaq miqyasında ön sıralarda yer almasını təmin etmiş, müstəqilliyimizə zəmin yaradan bünövrənin əsasını qoymuşdur.

XX əsrin sonlarında SSRİ-nin dağılması ilə azadlığına qovuşan Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində böyük təhlükələr və ciddi sınaqlar qarşısında olmasıgənc ölkəni bu çətin sınaqlardan çıxaracaq güclü iradəyə malik liderə ehtiyac duyulduğunu ön plana çəkir, həmin liderin rəhbərliyi ilə müstəqilliyin davamlı olmasını təmin edəcək siyasi qurumun formalaşması zəruriətini yaradırdı. Belə olan halda 21 noyabr 1992-ci ildə Naxçıvan şəhərində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması xalqımızın arzu və istəklərinin, milli mənəvi iradəsinin ifadəsinə zəmin yaratmaqla, müstəqillik yolunda addımlayan Azərbaycan Respublikasının inkişafına təkan vermiş oldu.

Beləliklə qısa zaman kəsiyində dahi şəxsiyyətin uzaqgörən siyasəti, yüksək səviyyəli idarəetmə bacarığı ilə Respublikada olanbütün təhlükələr dəf edildi, inkişaf strategiyasının təməllərini qoyulmuş oldu. Müstəqilliyin qorunmasının onun əldə edilməsindən qat-qat çətin olduğunu bildirən dahi rəhbər Heydər Əliyev bu ağır vəzifənin öhdəsindən layiqincə gəldi, dövlət müstəqilliyimizi əbədi və dönməz etdi, ölkəmizə sabitlik, sülh və əmin-amanlıq, siyasi islahatlar, demokratikləşmə, iqtisadi yüksəliş, sosial inkişaf gətirdi, Azərbaycanı çiçəklənən bir ölkəyə çevirdi. Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, digər tərəfdən ölkədə sabitliyin olması üçün bütün siyasi və diplomatik vasitələr işə salınaraq 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olundu, respublikamızın beynəlxalq əlaqələrini möhkəmləndirərək, gələcək inkişafa hesablanmış neçə-neçə layihələrin təməli qoyuldu. Düşünülmüş xarici siyasət kursu ölkəmiz üçün təkcə siyasi dəstək deyil, həm də iqtisadi əməkdaşlıq və investisiya imkanları yaratdı. Azərbaycanın günbəgün beynəlxalq nüfuzu artmağa, iqtisadiyyatın müxtəlif sahələrinə külli miqdarda xarici sərmayə yatırılmağa başlanıldı.



*İlkin Əliyev*
*Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatının sədri*

Dünyanın söz sahibi olan ölkələrin nəhəng neft şirkətləri ilə intensiv danışıqlara başlanılaraq 1994-cü ilin sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanı dünyanın iqtisadi siyasətinin mərkəzinə, o cümlədən nəhəng dövlətlərin mühüm iqtisadi tərəfdaşına çevirmiş oldu.XXI əsrin başlanğıcında ölkəmizin müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yer tutması, regional liderliyini təmin etməsi, iqtisadi sahədə keçid dövrünü uğurla başa vurması da məhz Ümummilli lider Heydər Əliyevin xalqın iradəsinə arxalanmaqla əsasını qoyduğu uzaqgörən siyasətin nəticəsi idi. Dövlət idarəçiliyi sahəsində zəngin təcrübəyə, yüksək bilik və bacarığa malik Ulu Öndər Heydər Əliyevin xarici siyasətdə əldə etdiyi uğurlar, yüksək əlaqələrin qurulması, həyata keçirdiyi balanslaşdırılmış siyasət Azərbaycanın uğurlu inişafına şərait yaratmış oldu.

Hazırda Ümummilli lider Heydər Əliyevin ideyaları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin gərgin əməyi və fəaliyyəti nəticəsində yaşayır və yüksələn xətlə inkişaf edir. Əminliklə demək olar ki, dövlət başçısının apardığı həm xarici, həm də daxili siyasət Ulu Öndər kursunun uğurlu davamıdır. Bu siyasətin təməlində isə Azərbaycan dövlətinin güclənməsi, onun müstəqilliyinin qorunması, iqtisadiyyatının inkişafı və əhalisinin maddi rifah halının yaxşılaşması durur.

Bu gün məhz Prezident cənab İlham Əliyevin güclü siyasi iradəsi sayəsində Azərbaycanda bütün dünya miqyasında nümunəvi sayılan və bir sıra mütərəqqi cəhətləri ilə fərqlənən yeni keyfiyyətli inkişaf modeli formalaşıb. Həyata keçirilən davamlı islahatlar sayəsində Azərbaycan ötən müddətdə ölkənin iqtisadi müstəqilliyinin təmin olunmasında, ordu quruculuğunda inamlı addımlar atıb.Aparılan məqsədyönlü, ardıcıl və qətiyyətli siyasətin nəticəsində Azərbaycan özünün hərbi potensialını əhəmiyyətli dərəcədə artırmağa nail olub,ordumuz ən müasir silah-sursat, texnika və avadanlıqlarla təchiz olunub, ölkəmizə qarşı istənilən vaxt edilə biləcək hücumların qarşısını ala biləcək və bu hücumlara dərhal reaksiya verə biləcək Silahlı Qüvvələrimiz formalaşdırılıb. Məhz bu uğurların nəticəsində 2016-cı ilin aprel döyüşlərində, 44 günlük haqq savaşımızda və 2023-cü ilin sentyabr ayında həyata keçirilmiş, cəmi 23 saat 43 dəqiqə davam etmiş antiterror əməliyyatlarındarəşadətli ordumuz Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə gücünü bütün dünyaya nümayiş etdirərək tarixi ədaləti bərpa etmiş oldu.

Prezident İlham Əliyev öz əməli fəaliyyəti ilə qısa zaman kəsiyində ona bəslənilən bütün ümidləri tam doğrultmaqla, cəmiyyətin bütün gözləntilərini gerçəkləşdirdi, yorulmaz, qətiyyətli və prinsipial fəaliyyəti ilə sübut etdi ki, onun atdığı hər bir addım, verdiyi hər bir qərar cəmiyyət üzvlərinin maraq və istəklərinin təmin edilməsinə, dövlətçiliyimizin möhkəmlənməsinə, ərazi bütövlüyümüzün təmin edilməsinə, siyasi sabitliyin və iqtisadi tərəqqinin davamlılığına və daha da möhkəmlənməsinə hesablanıb. Beləliklə "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək!" demiş Ümummilli lider Heydər Əliyevin arzularını reallaşdırmaqla Prezident cənab İlham Əliyev xalqımız qarşısında ən böyük missiyasını yerinə yetirmiş oldu.

Bu gün müstəqil, qüdrətli Azərbaycan deyəndə məhz Ulu Öndər Heydər Əliyevin ideyaları, dahi şəxsiyyətin ölkəmizin inkişafı naminə həyata keçirdiyi fədakar fəaliyyəti göz önündə canlanır. "Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam" deyən Ulu Öndər Heydər Əliyevin keçdiyi həyat yolu, böyük şəxsiyyət obrazı bizəvə gələcək nəsillərə örnəkdir.Məhz ölkəmizin uğurlu inkişafının əsasını təşkil edənÜmummilli lider Heydər Əliyevin dövlətçilik irsi, tarixi fəaliyyətləri hazırda dərindən öyrənilir, geniş təbliğ olunur.

Xüsusilə Heydər Əliyev Fondu bu prosesdə müstəsna xidmətlər həyata keçirir. Ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə Azərbaycan xalqının ehtiramını ifadə edən Heydər Əliyev Fondunun təsis edilməsindən ötən 20 il ərzində həyata keçirdiyi tədbirlərə, icra olunan layihələrə diqqət yetirdikdə ölkəmizin inkişafına veridiyi töhfələr açıq və aydın şəkildə müşahidə olunur.Yarandığı gündən Azərbaycanın birinci xanımı, Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın rəhbərliyi ilə daim vətəndaşlarımızın yanında olan, onların problemlərinin həllində əvəzsiz xidmətlər göstərən, xalqımızın gələcəyi naminə bir sıra əhəmiyyətli layihələri inamla həyata keçirən Heydər Əliyev Fondu milyonların dayağına çevrilmiş, qarşıya qoyulmuş vəzifələrinöhdəsindən layiqincə gəldiyini isbat etmişdir.

Ümummilli lider Heydər Əliyevin zəngin irsini öyrənən və təbliğ edən Fondun çoxşaxəli fəaliyyəti, müxtəlif sosial, iqtisadi, mədəni layihələri reallaşdırmaqla ölkəmizin inkişafına, mədəniyyətimizin və tariximizin təbliğinə kömək göstərir, o cümlədən təhsil, səhiyyə, idman, elm, texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda uğurla iştirak edir. Fond tərəfindən 2005-ci ildən etibarən həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində paytaxt və bölgələrdə, o cümlədən ölkənin ən ucqar regionlarında yeni avadanlıqlarla təchiz olunmuş, müasir tələblərə cavab verən məktəb binaları tikilərək istifadəyə verilmişdir. Ötən dövr ərzində Heydər Əliyev Fondunun təhsillə bağlı həyata keçirdiyilayihələrdən biri də Azərbaycanda mövcud olan internat məktəblərinə və uşaq evlərinə qayğının artırılması olmuş, bu müəssisələrin maddi-texniki bazalarının yenidən qurulması istiqamətində "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində işlər həyata keçirilmişdir.

Təhsil sahəsi ilə yanaşı Azərbaycanda səhiyyənin inkişafı, yeni xəstəxanaların açılması və onların müasir avadanlıqla təchiz edilməsi Heydər Əliyev Fondunun fəaliyyətləri arasında ön sıralarda qərarlaşmışdır. Fondun dəstəyi ilə reallaşan "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi, qan xəstəliklərinin müalicəsi ilə bağlı bir çox layihələrin həyata keçirilməsi, hematoloji yardım və qan xidmətinin inkişafına yüksək diqqət və qayğı, talassemiya, hemofiliya və digər qan xəstəliklərindən əziyyət çəkən vətəndaşlara yardım göstərilməsi məqsədilə "Talassemiyasız həyat naminə" proqramı nəticəsində çox sayda ölkə vətəndaşının səhhəti ilə bağlı olan problemlərinin həllinə dəstək göstərilmişdir. Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım göstərilməsi, respublikanın və xarici ölkələrin təhsil müəssisələri ilə mütəmadi olaraq faydalı əməkdaşlıq münasibətlərinin qurulması, ölkənin yaradıcı və elmi potensialının artırılması kimi məqsədlər də fondun ötən 20 illik fəaliyyətində prioritet istiqamətlər olmuşdur. Bundan əlavə, qurum uşaq müəssisələrinin infrastrukturlarının, tibbi təsisatların inkişaf etdirilməsi, sağlam həyat tərzinin təbliği, Azərbaycanın ərazisində və xaricdə aktual mövzulara dair konfrans və seminarların keçirilməsi, yaradıcı gənclərin, incəsənət xadimlərinin sərgilərinin təşkili, Azərbaycan xalqının mənəvi ənənələri və tarixində dərin köklərə malik muğam sənətinin inkişafı və təbliği, milli musiqi irsimizin qorunub saxlanılması, dünya musiqi incilərinin ölkədə tanıdılması sahəsində uğurlu fəaliyyət nümayiş etdirmişdir.

Fondun təşəbbüsü və təşkilatı dəstəyi ilə 2007-2012-ci illərdə Bakıda Mstislav Rostropoviç adına Beynəlxalq Musiqi Festivallarının təşkili, Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzinin açılışı, 2009, 2011, 2013, 2015 və 2018-ci illərdə "Muğam aləmi" Beynəlxalq Muğam Festivallarının təşkili, həmçinin 2009-2018-ci illərdə Qəbələ şəhərində Beynəlxalq Musiqi Festivalları keçirilməsi, eləcə də "Azərbaycan Muğamı" multimedia toplusunun, 24 virtuoz muğam ustadının ifaları toplanmış "Qarabağ xanəndələri" musiqi albomunun və "Muğam ensiklopediyası" nəşri qədim musiqi irsimizin qorunması, inkişafı və gələcək nəsillərə çatdırılması yolunda əvəzsiz xidmətlərdəndir.

Ötən dövr ərzində həyata keçirilmiş müxtəlif istiqamətli fəaliyyətləri sırasında Azərbaycan həqiqətlərinin təbliği və dünya ictimaiyyətinə çatdırılması xüsusi önəm verilən məsələlərdən olmuşdur. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən irəli sürülmüş "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində görülən işlər,kampaniya çərçivəsində dünyanın əksər ölkələrində Xocalı faciəsinə həsr olunmuş tədbirlərin keçirilməsi, konfransların, seminarların, sərgilərin təşkil edilməsi, filmlərin çəkilməsi, kitabların nəşr olunması işğalçı Ermənistanın azərbaycanlılara qarşı həyata keçirdiyisoyqırımı siyasətinin nəticələri haqqında dünya ictimaiyyətinin məlumatlandırılması yönündə böyük əhəmiyyətə malikdir. 20 illik fəaliyyəti dövründə Heydər Əliyev Fondu nəinki Azərbaycanda, eyni zamanda, regionda görülən işlərin həcminə görə ən böyük ictimai təşkilata çevrilmiş, Mehriban xanım Əliyevanın təşəbbüsü və birbaşa rəhbərliyi ilə reallaşdırılan layihələr cəmiyyət həyatının bütün sferalarını əhatə etməklə ən yüksək amallara, keyfiyyətlərə söykənmiş, irəli sürülmüş təşəbbüslər bir qayda olaraq ümumi mənafedən irəli gəlmişdir.

Bu gün xalqımızın Ümummilli lideri Heydər Əliyevin adını daşıyan Fond öz fəaliyyətini uğurla davam etdirir, davamlı olaraq həyata keçirilən tədbirlər, xeyriyyəçilik missiyası nəticəsində Azərbaycan vətəndaşlarının sosial vəziyyətinin yaxşılaşdırılmasına xidmət edir. Heydər Əliyev Fondunun gördüyü işlərin hər biri Mehriban xanım Əliyevanın böyük əməyi sayəsində Azərbaycanın sivil bir dövlət olaraq inkişafında xüsusi yerə və rola malikdir. Həyata keçirdiyi xeyirxaq layihələr və tədbirlərlə ölkə vətəndaşlarının rifah halının yaxşılaşdırılmasına xidmət edən Heydər Əliyev Fondunun təsis edilməsinin 20 illiyi münasibəti ilə səmimi qəlbdən təbrik edir, çoxşaxəli və genişmiqyaslı fəaliyyətində uğurlar arzu edirəm.

# Böyük Qayıdış konsepsiyası: QARABAĞ və ŞƏRQİ ZƏNGƏZUR

Azərbaycanın işğalçı Ermənistan üzərində parlaq qələbə qazanmasından sonra qısa bir zamanda azad olunan ərazilərimizdə bərpa-təmir, abadlıq və quruculuq işlərinə start verildi. Reallaşan layihələr işğaldan azad edilmiş rayon, kənd və qəsəbələrin sosial-iqtisadi inkişafına təkandır. İrimiqyaslı layihələr sırasında beynəlxalq hava limanları, "yaşıl enerji" zonasının yaradılması məqsədilə pilot layihələr qismində bəzi yerlərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqinə start verilməsi və s. ərazilərdə aparılan abadlıq-quruculuq işləri Böyük Qayıdışın təntənəsidir. Azərbaycan Prezidenti İlham Əliyevi bildirdiyi kimi, "Qarabağda və Şərqi Zəngəzurda bütün bərpa, yenidənqurma işləri maksimum şəffaf şəkildə aparılır... Bu ilin sonuna qədər, müharibə başa çatandan sonra Qarabağa və Şərqi Zəngəzura 12 milyard manat, yəni, təqribən 7 milyard dollar ətrafında vəsait yatırılır və yatırılacaqdır. Görülən bütün işlər göz qabağındadır. Tender prosedurlarına tam əməl edilir".

30 ilə yaxın işğal altında olan və 44 günlük Vətən müharibəsi zamanı azad olunan hər bir ərazidə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində "Bizim ölkəmiz üçün yeni dövr başlayır", - deyərək artıq ölkəmizdə yeni dövrün başlandığını bildirmişdi: "Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir".









### RAHATLIQ VƏ FİRAVANLIĞIN TƏMİNATI

İşğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl görülən işlər çərçivəsində yolların yenidən qurulması, müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar əsasında yol infrastrukturunun təzələnməsi daha da sürətləndirilir. Təbii ki, avtomobil yolları hər bir ölkənin iqtisadi qüdrətinin göstəricisidir. Ölkənin istehsal və sənayenin bütün sahələrinin inkişafı birbaşa olaraq yol örtüyünün hansı vəziyyətdə olmasından asılıdır. Rayonlar, kəndlər və qəsəbələrarası avtomobil yolu layihələrinin icrası uğurla həyata keçirilir.

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, abadlıq-quruculuq işləri sırasında Əhmədbəyli-Füzuli-Şuşa magistral avtomobil yolunun 66-81-ci kilometrliyində görülən işlər də bu sıradadır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə və keyfiyyətlə yerinə yetirilib. Bu yol başlanğıcını "Zəfər yolu"ndan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir.

### "MÜHARİBƏDƏN CƏMİ ÜÇ İL YARIM VAXT KEÇİB, ARTIQ 6 MİN KEÇMİŞ KÖÇKÜN ÖZ DƏDƏ-BABA TORPAĞINA QAYIDIB"

Bu gün işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. Böyük Qayıdışımız uğurla yerinə yetirilir. Artıq işğaldan azad olunan ərazilərimizin əzəli sakinləri öz dədə-baba yurdlarına qayıdırlar. Zəngilan rayonu Ağalı kəndində canlı həyat yaşanılır, Tərtərin Talış kəndinə, Füzuliyə, eləcə də Laçına köçlər yola salınıb. İnsanların doğma yerlərdən sələri eşdilir. Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur. "Müharibədən cəmi üç il yarım vaxt keçib, artıq 6 min keçmiş köçkün öz dədə-baba torpağına qayıdıb və bu proses davam etdirilir. Bu ilin sonuna qədər 20 min köçkün qayıdacaq və hər qayıdan insan Azərbaycan Ordusuna, Azərbaycan rəhbərliyinə minnətdarlıq hissi ilə qayıdır, şəhidlərə Allahdan rəhmət diləmək sözləri ilə qayıdır", - deyə Azərbaycan Prezidenti bildirib.

**Prezident İlham Əliyev: "Bu ilin sonuna qədər 20 min köçkün qayıdacaq və hər qayıdan insan Azərbaycan Ordusuna, Azərbaycan rəhbərliyinə minnətdarlıq hissi ilə qayıdır"**

### FÜZULİ ŞƏHƏRİNƏ 3132 NƏFƏR KÖÇÜRÜLÜB

Yeni dövrünü yaşayan Füzulimizə də köç karvanları davamlı olaraq yola salınır. Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı da əzəli torpaqlarımızda yuva saldı. Bu mərhələdə Füzuli şəhərinə daha 39 ailə - 153 nəfər köçürüldü. Köç Bakı və Sumqayıt şəhərlərindən, Abşeron rayonundan köçürülən 33 ailə (131 nəfər) paytaxtın Qaradağ rayonundan yola salınıb. Yevlax şəhərində, Füzuli və Şamaxı rayonlarında məskunlaşmış 6 ailə (22 nəfər) də məskunlaşdıqları ərazidən yola salındı. Beləliklə, bu köç də nəzərə alınmaqla Füzuli şəhərinə köçürülən ailələrin ümumi sayı 822-yə (3132 nəfər) çatmış oldu.

Füzulinin Baş planına uyğun olaraq həyata keçirilən və görüləcək işlər buranın yeni və müasir məkan olacağını təsdiqləyir. Baş planda 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Müasir standartlara və memarlıq xüsusiyyətlərinə uyğun inşa ediləcək Füzuli işğaldan azad edilmiş ərazilərdə ən böyük şəhərlərdən biri olacaq. Şəhərdə rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa ediləcək, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri, rekreasiya və digər təyinatlı zonalar yaradılacaq. Burada şəhərsalmanın bütün müasir tələblərinə cavab verəcək üç yaşayış kompleksi inşa olunur. Komplekslərdə ümumilikdə 2462 mənzil olacaq. Təxminən 22,5 hektar ərazidə Mərkəzi park yaradılacaq. Parkda istirahət zonaları, botanika bağı, sıx meşə zonası, piknik və idman meydançaları və s. fəaliyyət göstərəcək. Burada müayinə və müalicənin yüksək səviyyədə aparılması üçün ən müasir tibbi avadanlıqla təchiz ediləcək 180 çarpayılıq Füzuli Rayon Mərkəzi Xəstəxanası inşa olunacaq.

### CƏBRAYIL RAYONUNDAKI KOMPLEKSƏ 712 AİLƏ KÖÇÜRÜLƏCƏK

Müvafiq Dövlət Proqramına əsasən, 2022-2026-cı illərdə Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarında 24 kənd, 5 qəsəbə və 3 şəhərin inşası planlaşdırılır. Hazırda Cəbrayıl şəhərində 712 mənzildən ibarət böyük bir kompleks artıq tikilir və 2 aydan sonra onun bir hissəsi təhvil veriləcək. Həmin bu kompleksə Cəbrayıl şəhərinin sakinləri qayıdacaqlar. Cəbrayıl rayonundakı kompleksə 712 ailənin köçürülməsi nəzərdə tutulur. Hazırda Zəngilanda da böyük abadlıq-quruculuq işləri görülür. 13 binadan ibarət bir kompleks tikilir və sakinlərin 2024-2026-cı illərdə ora köçürülməsi planlaşdırılır. Rayonun Cahangirbəyli kəndində də hazırda tikinti işləri həyata keçirilir. Həmçinin 2024-2026-cı illərdə Cəbrayıl rayonunun Xorovlu qəsəbəsinə, Qubadlı rayonunun Mahruzlu və Zilanlı kəndlərində də artıq tikintilər başlanılıb və həmin bu kəndlərə də köç nəzərdə tutulur.

"2022-2026-cı illər üzrə Dövlət proqramı"na əsasən, Cəbrayıl, Qubadlı və Zəngilana 40 min nəfər köçəcək. Bu proses mərhələli şəkildə həyata keçiriləcək. Ümumiyyətlə, işğaldan azad olunmuş ərazilər yaşıl zona elan edilib və bunun sayəsində bütün inzibati binalarda, qeyri-yaşayış sahələrinin üstündə günəş panelləri istifadə olunur. Bundan əlavə, Zəngilan rayonunun özündə 4 kiçik su elektrik stansiyası artıq fəaliyyət göstərir.İşğaldan azad olunan və üçrəngli bayrağımız dalğalanan ərazilərimizdə müasir infrastruktur yaradılır və yollar bizi Qarabağa və Şərqi Zəngəzura aparır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Boşanmaların görünməyən səbəbləri NƏLƏRDİR?

***Bu gün dünyanın bütün ölkələrində rast gəlinən və sosial problem olan boşanma emosional baxımdan çətin bir hadisədir. Təbii ki, heç kim nikahın uğursuz olacağını gözləyərək evlənmir. Lakin bəzən elə olur ki, bitməsi nəzərdə tutulan evliliklər sən demə əslində heç vaxt başlamayıbmış. Boşanmaların bir çox səbəbləri olduğu məlumdur. Bunlardan ən başlıcası da ər və ya arvadın öz ana-atasından ayrıla, yəni boşana bilməməsidir.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.



## Niyə kişilər və qadınlar ailə qursalar da, valideynlərindən ayrıla bilmirlər?

Yaşadığımız coğrafiyada uşaqlar ana və atalarından asılı fərdlər kimi böyüyürlər. Asılı sözünü burada xüsusilə qeyd etmək lazımdır. Çünki bağlılıq və asılılıq çox vaxt bir-biri ilə qarışdırılır. Valideynlərinizi sevmək, onlara hörmət etmək və əlaqə saxlamaq vacibdir. Ancaq həyatımızın idarəsini onlara buraxmaq və etdiyimiz hər işdə onların razılığına ehtiyac duymaq asılılıqdır. Bu asılılıq həyatın sonrakı mərhələlərində ciddi problemlər yaradır.

Bunun bir çox səbəbləri var. Məsələn, bəzi valideynlər "Qocalanda mənə baxacaq biri olsun" düşüncəsi ilə uşaq sahibi olmağa qərar verirlər. Əgər belə bir düşüncə tərziniz varsa, uşağınızın müstəqil bir fərd olması sizi qane etməyəcək.

Başqa bir səbəb qadınların uğursuzluğu ilə bağlıdır. Qadın ərindən kifayət qədər diqqət və sevgi görmürsə, övladlarından yapışaraq bu sevgini almağa çalışacaq. Xüsusən də bu qadının uşaqlığı pis keçibsə və bir çox arzularını həyata keçirməyibsə, övladları vasitəsilə keçmişini düzəltməyə çalışacaq, həyata keçməmiş arzularını övladlarına yükləyərək onlardan istədiyi biri ilə evlənmələrini tələb edəcək. Bir sözlə, övladları vasitəsilə öz varlığını dərk etməyə çalışacaq.

Bunun baş verməsi üçün övladlarınız patoloji olaraq sizdən asılı olmalıdır. Xüsusilə analar bu aludəçiliyi qorumaq üçün övladlarının kiçik yaşlarından etibarən özlərinin edə biləcəkləri işləri görərək, onların ruhən böyüməsinə mane olurlar.

Məsələn, 8 yaşlı uşağı yedizdirən, 9 yaşında geyindirən, 10 yaşında çimdirən, 11 yaşında ev tapşırığını yerinə yetirən ana əslində fərqində olmadan aludəçi (asılı) uşaq böyüdür. O, tez-tez bunu sevgi adına və ətrafındakılara onun necə yaxşı bir ana olduğunu göstərmək üçün etdiyini də deyir.

## Boşanmaların görünməyən səbəbləri nələrdir?

Ölkəmizdə boşanmaların görünən bir çox səbəbləri olsa da, bu səbəblərin əsasında himayədarlıqda böyüyən uşaqların çox vaxt fərdləşə bilmədən ailə qurması dayanır.

Məsələn, özündən asılı uşaq böyüdən ana, oğlunun iyirmi yaşı tamam olanda üzərinə düşən vəzifələri yerinə yetirmədiyinə görə istehza ilə şikayət etməyə başlayır. Buna nail ola bilmədiyi üçün çıxış yolu kimi övladını evləndirməkdə görür. Xalq deyimi ilə desək, "Evlənsə, adam olar" və ya "Evlənsə, düzələr" düşüncəsi ilə hərəkət edir. Ancaq burada problem ondan ibarətdir ki, o, özü böyüdə bilmədiyi uşağı böyütmək üçün başqa bir qadın gözləyir. Bu şəkildə evlənən fərd bir müddət sonra həyat yoldaşını ana kimi görməyə başlayacaq və ilk növbədə evliliyin tələb etdiyi vəzifə və məsuliyyətləri yerinə yetirməyəcək.

Bu vəziyyət bəzən iqtisadi problemlər, bəzən də ciddi fikir ayrılıqları kimi səbəblərdən boşanmalara çevrilir.

Türkiyədə nikahlarla bağlı gözəl bir söz var: "Qərb cəmiyyətlərində fərdlər, şərq cəmiyyətlərində isə ailələr evlənir". Asılı olaraq böyüyən uşaqlar, evlilikləri zamanı evlərinə alınacaq əşyalardan tutmuş, bal ayı boyunca tətilə gedəcəkləri yerə qədər ailələrinin rəyinə və razılığına ehtiyac duyurlar. Bu vəziyyət bir müddət ailələr arasında münaqişəyə çevrilir. Əslində ölkəmizdə elə evliliklər var ki, ər-arvad arasında asanlıqla həll oluna bilən kiçik problemlər ailələrin bu güc və kimlik mübarizəsi ucbatından boşanma ilə yekunlaşır.



## Mühitin cütlüklərə hansı təsiri var?

Ailənin sərhədləri olmalıdır. Bu sərhədlər ailəni kənardan gələ biləcək müsbət və ya mənfi təsirlərdən qorumalıdır. İkinci şəxslərin müdaxiləsinin qarşısı alınmalıdır. Bəzən içəridən sərhəd pozuntuları baş verə bilər. Uşaqlara məhdudiyyət qoya bilməmək və ya yox deyə bilməmək kimi. Bizdə valideynlər övladları ailə quranda "əlvida" deməkdə çətinlik çəkirlər. Kaş ki, uşaqlarımızı evləndirəndə həqiqətən onlarla vidalaşa biləк. Kaş uşaqlarımızı başqa bir ev quran bir insan kimi yerləşdirə bilsək.

Cütlüklər kənardan suflyor kimi fəaliyyət göstərən bir çox insanla qarşılaşırlar. İstiqamətləndirmələr başlayır. Sonra iki nəfər arasında onsuz da çətin olan evlilik münasibəti daha da çətinləşir. Həyat yoldaşınızla yaşadığınız problemi başqası ilə bölüşəndə ona dəvət göndərirsiniz ki, gəlib mənim ailəmə müdaxilə edin.

Biz evliliklə bağlı gözləntilərin çox olduğu bir cəmiyyətdə yaşayırıq. Ailələr üçün ailə quran insanlar hələ də onların övladlarıdır və verdikləri qərarların düzgünlüyündən narahat ola, müxtəlif məsləhətlər verə bilərlər. Bu davranışlar yaxşı niyyətlə edilsə də, cütlüklərin sərhədlərini pozur və mənfi nəticələrə səbəb olur. Bu vəziyyəti ailələrə izah etmək hər zaman asan olmaya bilər, lakin siz ailələrinizlə sərhədlərinizi dəqiqləşdirməyi öyrənməlisiniz. Unutmayın ki, siz cütlük olaraq öz həqiqətləriniz və arzularınızla öz evliliyinizdə iştirak etməlisiniz. Evlilikdə ailələrdən deyil, həyat yoldaşından tələblər və gözləntilər olmalıdır. İdeal gəlin və ya kürəkən olmaq üçün deyil, ideal tərəfdaş olmaq üçün çalışmaq münasibətlərin sağlam əsasda irəliləməsinə imkan verir.

## Kök ailə problemlərinin səbəbləri nələrdir?

Kök ailə problemləri çox vaxt həm evli cütlük, həm də onların ailələri və ailələrin bir-biri ilə ünsiyyət problemlərindən yaranır. Burada ünsiyyətin pozulmasının ən kritik səbəblərindən biri ailələr arasında mədəni fərqlərdir. Fərqli mədəniyyətlərdən olan ailələrin öz mədəniyyətlərindəki ailə quruluşu, adət-ənənələri və düşüncə tərzinə görə fərqli arzu və yanaşmaları ola bilər ki, bu da ailələr arasında ünsiyyət problemlərinə səbəb olar. Ailələr arasında gəlir səviyyələrindəki fərqlər bəzən problemlər yarada bilər. İqtisadi vəziyyəti aşağı olan tərəfin cütlüyə verdiyi dəstək mövzusunda fikir ayrılıqları yarada bilər və bu, ailə daxilində qeyri-adekvatlıq hissi yaranar.

Digər kök ailə problemi problemlərə ailələrin cəlb edilməsidir. Kök ailələr davamlı olaraq evlilik daxilində baş verənlərlə bağlı fikirlərini bildirsələr və cütlərin həyat nizamına müdaxilə edərsə, yeni problemlərin ortaya çıxacağı qaçılmazdır. Zaman zaman ailələrin övladlarına məsləhət verə biləcəyi məsələlər ola bilər, lakin bu nöqtədə müdaxilənin harada edildiyinə və bu müdaxilənin tələb edilib-edilməməsinə diqqət yetirilməlidir.

## Evlilikdə həyat yoldaşı və ailə arasında balansı necə qurmaq olar?

* Sərhədlərinizi açıq şəkildə bildirin.

* Özünüzə və qurduğunuz yeni ailəyə qarşı məsuliyyətlərinizi dərk etməyə çalışın. Unutmayın ki, bu məsələdə prioritetlərinizi ifadə etmək və bəzən yox demək lazımdır.

* Hər iki tərəfi tənqid etmədən ehtiyac və istəklərinizi ifadə etməkdə diqqətli olun.

## Evliliklərdə kök ailəyə məhdudiyyətlərin qoyulması

Ailə daxilində sərhədlər qoymağı öyrənmək əslində ailədəki insanlara öz hisslərini, düşüncələrini və istəklərini həyata keçirməyə kömək edir, onlara hörmətlə yaşamağa imkan verir və sevginin davamlı olmasını təmin edir.

Təbii ki, təkcə ailə deyil, həm də sosial münasibətlərimizin sağlam və davamlı olması üçün hər kəs əvvəlcə özünü, sonra qarşıdakı insanı sevməli və onlara üstünlük verməlidir. Sərhədlərimiz əsasən digər insanı daha sağlam bir şəkildə sevmək üçün nəyə ehtiyacımız olduğunu söyləyir.

Sağlam sərhədləri olan ailə münasibətləri çox vaxt aşağıdakı xüsusiyyətlərə malikdir:

* Xeyr demək hüququna sahib olmaq.

* Özümüzə gizli qalması tələb olunan məlumatları saxlaya bilmək.

* Hisslər, düşüncələr, həyat qaydaları və inancları baxımından hörmətli olmaq.

* Xüsusi olaraq rəy tələb olunduğu hallar istisna olmaqla, məsləhət, rəhbərlik və ya tənqidi qəbul etməmək.

Cütlüklər kök ailələrindən yeni qurduqları ailəyə nə qədər tez uyğunlaşsalar və aralarındakı sərhədləri qoruyub saxlaya bilsələr, xarici müdaxilələr bir o qədər tez bitəcək.

***Ayşən Vəli***

# “Bakı və Berlin arasında gedən dialoq inkişaf edən xətlə özünü büruzə verir”



## POLİTOLOQ ŞƏRH ETDİ

”Prezident İlham Əliyevin Almaniyaya səfəri ilk növbədə Azərbaycana bu ölkə tərəfindən göstərilən dəstəyin təzahürüdür. Çünki ”15-ci Petersberq İqlim Dialoqu” iştirakçısı olaraq Azərbaycan həm də COP29-a hazırlıq işini davam etdirir. Bu bir daha təsdiqləyir ki, rəsmi Berlin Azərbaycanın COP-dakı sədrliyini birmənalı şəkildə dəstəkləyir və onunla həmrəy olacağına münasibətini göstərir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib.

O qeyd edib ki, səfər zamanı həm Almaniya kansleri, həm də Azərbaycan Prezidenti ikitərəfli maraq kəsb edən məsələlərə də münasibət bildirdilər: ”Təbii ki, dialoq məfkurəsinin yer alması diqqəti çəkir. Çünki Almaniya Avropa İttifaqının əsas ölkələrindən biridir və güclü iqtisadiyyata malikdir. Digər tərəfdən elə bir müddət əvvəl Almaniya Federativ Respublikasının iqtisadi sistemdəki Şərq konfransının böyük nümayəndə heyəti Azərbaycana gəldi və dövlət başçısı onları qəbul etdi. Bu da ondan xəbər verir ki, iqtisadi zəmində bizim ortaq maraqlarımız var. Həmçinin Almaniya heç də gizlətmir ki, Azərbaycanın enerji kompleksinə böyük ümidləri var. Azərbaycandan Avropaya neft və qaz ixracatının həcmləri artır. ”Yaşıl enerji” isə artıq günün tələbidir. Qara dənizin altı ilə Azərbaycandan çəkiləcək enerji xətti bərpa olunan mənbələr əsnasında artıq istifadə ediləcək. Burada da həcmlər artacaq. Çünki ilk növbədə Azərbaycan daxilində bu işlərin təməli güclənir. Qarabağ bölgəsinin bərpasında da ”yaşıl enerji” əsas faktorlardan biridir. Ona görə də bu məsələyə kompleks şəklində baxaraq görürük ki, Azərbaycan dövlətinin siyasəti ”yaşıl enerji”nin yaxın gələcəkdə ənənəvi enerji sektorunun əsas hissəsinə çevrilməsidir”.

Politoloqun sözlərinə görə, bu mənbələrin güclü olması həm ölkəmizin istehsal potensialını, həm də ətraf-mühitin qorunmasında payımızı artıracaq: ”Noyabrda keçiriləcək COP29-a ev sahibliyi etməklə Azərbaycan aktual gündəliyin formalaşmasında son sözün sahibi olacaq. Odur ki, bu məsələlərin hər biri Bakı və Berlini bir-birinə yaxınlaşdırır. Düzdü, münasibətlərimizdə insan haqları, söz azadlığı və s. kimi ağrılı məqamlar da var. Bu kontekstin özündə də görürük ki, həm Avropa, həm ABŞ-ın özü artıq büdrəyir. Azərbaycan bu proseslərin hamısında öz yolunu tapıb. Bizə heç bir dərs verən lazım deyil. Çünki hər dövlətin öz demokratik yolu var. Bu yol hər zaman ənənələrə və milli dəyərlərə söykənir. Azərbaycanın sözü artıq dünyada eşidilir. Bizə bu öz demokratik inkişaf yolumuzda kim dəstək olmaq istəyirsə, onun üçün ən münasib yanaşma mane olmamaqdır. Beləliklə hesab edirəm ki, səfər son dərəcə məhsuldar oldu. Bakı və Berlin arasında gedən dialoq inkişaf edən xətlə özünü büruzə verir. Nəhayət, COP29 ilə bağlı heç bir qaranlıq bir məqam qalmır”.

**L. Sərraf**

## FELYETON



# O iynəni bəri gətir...

Yaxın qohumlardan biri nağıl edir ki, uşaqlarla birlikdə kəndə getmişdik. Anam bizimlə halxoş edər-etməz, nəvələri ilə görüşər-görüşməz gəlini Südabəni səslədi ki, ay gəlin, o iynə-sapı bura gətir. Dedim, ay ana, nə edirsən iynə-sapı bu dəqiqə? Nəyinə lazımdır? Uzaq yol gəlmişik, bir gəl, otur, görək nə var-nə yox. Dərdimiz nədir, odumuz nədir? İş həmişə var da, bizi gözləyirdin elə? İşini saxla biz gedəndən sonraya. Gəlinimiz də bir yandan düşdü anamın üstünə ki, ay ana, bir səbir elə də. Nə olub ki, səni qovalayan var? Nə edəcəksən, edərsən də, bir qızından, nəvələrindən doy, ondan sonra.

Arvad nə ağ dindi, nə qara. Başını saldı aşağı, yaxşı, nə deyirəm, siz deyən olsun, dedi. Lakin görürəm ey, bu arvad heç rahat deyil. Anama bələd olduğum üçün üstünü çox vurmadım. Bilirdim ki, o, bir işi olanda və ya yarımçıq qalanda tamam etməyənə qədər narahat olur.

Öz-özümə dedim, əşi, bu arvad yaşlandı da xasiyyətindən əl çəkmədi ey. İlin bir başı gəlmişik, gəlib bizimlə oturmaqdan, nəvələri ilə söhbətləşməkdən, durub iynə-sap axtarır. Elə il boyu işdir də, görürsən.

Nə isə, arvadı bir təhər ki, fikrindən vaz keçirib, əyləşdirdik yanımızda. Söhbətləşdik, dedik-güldük. Qonşu Həsənin oğlunun inəyi, dananı satıb şəhərə köçməsindən danışdıq. O biri qonşu Həsənxanın oğlunun ata-anasını evin altında illərdir, tək qoyub Rusiyada yaşamasından söhbət etdik. Sağ tərəfdəki qonşunun gözünün ağı-qarası bircə balasının atasının yasına gəlib çıxa bilmədiyini nağıl etdi anam. Sol tərəfdəki qonşunun qızının qayınana ilə bir yerdə yaşamaq istəmədiyi üçün boşanıb gəlib atasının evində oturduğunu da danışdı anam.

Kənddə kəndlik qalmadığından söhbət etdik. Əvvəlki kənd hara, bugünkü hara, dedi anam: kəndin dadını qaçırıblar. Qapıların çoxu qıfıllıdır, yaydan-yaya gələn ola, ya olmaya. Nə təndirə, nə samovara od salan var. Kəndlinin əkib-biçdiyinə alverçilər elə qiymət qoyur ki, sata bilmirlər. Qalır əlində, xarab olur. Deyir, ta niyə əkim ki?.. Məcbur qalıb o da şəhərli kimi gedib bazardan alıb gətirir. Ta bu, kənddə yaşamaq olmadı ki...

Nə isə, anamla gecə yarıyadək aranı dağa, dağı arana gətirdik. Xeyli söhbət etdik, ötənləri xatırladıq. Nə vaxt yuxuya dalmışıq, xəbərimiz olmayıb.

Səhər-o baş yerimdə qurcalananda, gördüm ki, anam oturub, eynəyini də taxıb gözünə, tikiş tikir. Başladım deyinməyə ki, ay ana, nə edirsən, qoy bir səhərin gözü açılsın da. Gün qurtardı məgər? Özünə nə üçün zülm edirsən, köməkli edərdik də.

Anam:

-Ay bala, dünəndən elə bil iynə üzərində oturmuşam, dedim, bu qızın niyə bir iynə-sapı yox idi ki, bu uşaqlar əyin-başı belə cırıq-cırıq şəhərdən kəndə gəlib çıxıblar?

Anam belə deyəndə dik atıldım. Nə görsəm yaxşıdır? Anam oğlumla qızımın şalvarındakı yarıqları tikib qoyub bir kənara. Qızımın da ”kropunun” ətəyinə özünün köhnə gecəliyindən bir parça kəsib, əlindəcə deyinə-deyinə tikir: ah, qızım, mən səni belə öyrətmişəm? Qadının əlində iynəsi-sapı olar, uşağın-böyüyün cırılanını-yırtılanını tikər. Bu nədir, uşaqların dizi-budu, o yekəlikdə qızın qarnı-başı bayırda qalıb. Bilmədim gülüm, yoxsa səhər-səhər hirsimdən ağlayım. Dedim, ay zalımın qızı, onlar yırtılmayıb ey, şalvarlardakı cırıq deyil, yarıqdır, dəbdir. Qızın köynəyini niyə o hala qoymursan, durub dünyanı dağıdacaq. Göbəyi açıq köynəklər dəbdir ey, qısalığı ondandır.

Mən belə deyəndə arvad eynəyin altından mənə tərs-tərs baxdı, baxdı, bircə kəlmə onu dedi ki, kül sənin kimi ananın başına.

**Mətanət Məmmədova**



# “COP29 sülh prosesinin nəticəsidir”

## MÜNASİBƏT

***“COP-29 müstəqil Azərbaycanın təşkil edəcəyi ən böyük tədbir olacaq. Bu platformada qlobal əhəmiyyətli məsələlər müzakirə ediləcək, ölkəmizə 10 minlərlə xarici qonaq gələcək. Təbii ki, COP-29-la bağlı Azərbaycandan böyük gözləntilər var, həm hazırlıq prosesinin, həm tədbirin özünün yüksək səviyyədə təşkili üçün cəmiyyətin müxtəlif seqmentlərinin səfərbər olunması zəruridir. Buna görə, Təşkilat Komitəsinin (TŞ) tərkibi bir qədər də genişləndirildi. Ötən həftə Almaniyada keçirilən ”15-ci Petersberq İqlim dialoqu”nun yüksək səviyyəli Seqmentində çıxışı zamanı dövlət başçımız da bəyan etdi ki, Azərbaycanın yaşıl gündəliyi artıq dünyaya bəllidir. Biz Avropaya yaşıl enerjini ixrac etmək üçün fəal çalışırıq və təbii qaz təchizatçısı olan Azərbaycan Avropa üçün yaşıl enerji təchizatçısı da olacaq”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Könül Nurullayeva deyib.***

Onun sözlərinə görə, COP29-a ev sahibliyi edəcək ölkə kimi Azərbaycan qlobal tədbirə hazırlığın fəal mərhələsindədir: ”Ölkəmiz yaxşı nəticələrə nail olmaq üçün əlindən gələni edir. Burada diqqət eyni zamanda Azərbaycanın COP29-da sədrliyinin sülh prosesindən qaynaqlanmasına yönəlir. Prezident İlham Əliyevin ADA Universitetində keçirilən beynəlxalq forumda bəyan etdiyi kimi, COP29 sülh prosesinin nəticəsidir. Budəfəki COP-un mövzusu maliyyə olmasına baxmayaraq, ev sahibi ölkə olaraq biz gündəliyə bir neçə əlavə edə bilərik və belə məsələlərdən biri sülh olacaq.

Ümumiyyətlə, COP29-a ev sahibliyi etmək Azərbaycan üçün böyük məsuliyyətdir. Prezident İlham Əliyevin iqlim dialoqunda bəyan etdiyi kimi, biz nəinki yaxşı tədbir təşkil etməli, o cümlədən yaxşı nəticələrə nail olmalıyıq”.

Deputat bildirib ki, Azərbaycan xarici tərəfdaşlar və sərmayədarlarla yaşıl keçid üzrə artıq nəhəng layihələr icra etməkdədir: ”Azərbaycanın verdiyi əsas mesaj bundan ibarətdir ki, faydalı qazıntısı olan ölkələr iqlim dəyişməsi məsələlərinə aid həmrəyliyi nümayiş etdirən ölkələr sırasında olmalıdırlar. COP-29-da eyni zamanda müasir çağırışlar, innovasiya məsələləri də geniş müzakirə olunacaq.

Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olub. İki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Təsadüfi deyil ki, ötən ilin sonu, tədbirin keçirilməsinə 11 ay vaxt qalmış məhz ilk müşavirə Cənab Prezidentin sədrliyi ilə keçirildi. Dərhal bütün hazırlıq işlərinə start verildi, dövlət başçımız bütün lazımi tapşırıqları verdi.

Beləliklə, Azərbaycan neft-qaz ölkəsi kimi həm də yaşıl enerjiyə öz münasibətini göstərəcək. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda Azərbaycanın enerji siyasətinin prioritetidir. COP29 vasitəsilə bu, bir daha dünyaya bəyan olunacaq. Bu vaxta qədərki təcrübələri nəzərə alsaq, əminliklə söyləmək olar ki, ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən BMT Baş Assambleyasından geri qalmayan bu böyük tədbir ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq”.

**Ləman**

# "Siyasi məhbus" şousu Əli Kərimlinin yeni oyunu hesab olunur



Torpaqlarımızın işğaldan azad edilib suverenliyimizin bərpa olunmasından sonra Azərbaycanın inkişafında yeni mərhələnin əsası qoyulub. Bu isə Azərbaycan insanlarının daha təhlükəsizi və sosial iqtisadi cəhətdən firavan yaşaması deməkdir. Təəssüflər olsun ki, yenə də dağıdıcı müxalif ünsürlər və xaricdəki antimilli qüvvələr Azərbaycanında yaşanan möhtəşəm uğurlara, nailiyyətlərə kölgə salmağa xidmət edən açıqlamalar yayır, videolar paylaşırlar. Söz yox ki, bu cür əndrabadi fəaliyyət heç bir nəticə vermir. Nəinki Azərbaycan cəmiyyətini, eləcə də beynəlxalq ictimaiyyətin şübhəli nəsə düşünmələrinə imkanlar yaratmır. Əksinə, cəmiyyət dağıdıcı müxalifətin və xaricdəki antimilli qüvvələrin dezinformasiya xarakterli informasiyalar yayıb, şər və böhtandan ibarət olana videolar paylaşmaqla əsas məqsəd və niyyətlərinin nədən ibarət olduğunu yaxşı anlayırlar. Onla görə də, tərəflərin boşboğazlığı mənasız hay-küydən başqa bir şey deyil. Həm də ona görə ki, söylədikləri fikirlər, irəli sürdükləri iddialar ağ yalandan başqa bir şey deyil. Misal üçün, AXCP sədri Əli Kərimli iddia irəli sürür ki, guya Azərbaycanda 300 "siyasi məhbus" var. Onun müavini Fuad Qəhrəmanlı bir növ gopa basaraq sayıqlayır ki, 210 "Siyasi məhbus" həbsxanalarda cəza çəkir. Bundan əvvəl isə Müsavat başqanı Arif Hacılı bildirmişdir ki, guya ölkədə 190 "siyasi məhbus" var. Digər dağıdıcı müxalif ünsürlər də fərqli siyahılarla çıxış ediblər. Yəni, bir-birinə uyğun gəlməyən, bir-birini təkzib edən siyahılara sosial şəbəkələrdə və mətbuat səhifələrində müzakirələr çıxarıblar. Lakin anlamırlar ki, "siyasi məhbus" məsələsini haradan icad ediblər və "siyasi məhbus" kimlərdir". Əgər evə qanunsuz daxil olaraq oğurluq edənə "siyasi məhbus" deyirlərsə, bu, yanlışlıqdır. İkincisi, konkret cinayət əməlinə görə cinayət məsuliyyətinə cəlb olunan şəxsi "siyasi məhbus" olaraq təqdim etməyə çalışırlarsa, bu da hüquqi savadsızlığın göstəricisidir.

### Dələduzu necə "siyasi məhbus" adlandırmaq olar?

Əli Kərimli Nazim Bəydəmirlini "siyasi məhbus" hesab edir. Halbuki, bu şəxs hədə-qorxu ilə Mürsəl İbrahimov və Ədalət Bağırovdan küllü miqdarda pul tələb edib. Artıq istintaq orqanları tərəfindən Mürsəl İbrahimov və Ədalət Bağırov iş üzrə zərərçəkmiş qismində tanınıblar. Nazim Bəydəmirliyə Cinayət Məcəlləsinin 182.2.4-cü (Hədə-qorxu ilə tələbetmə, xeyli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə) maddəsi ilə ittiham irəli sürülüb. Daha sonra isə istintaq orqanı tərəfindən Nazim Bəydəmirli barəsində Cinayət Məcəlləsinin 182.2.2-ci (hədə-qorxu təkrarən tələbetmə) maddəsi ilə yenidən ittiham irəli sürülüb. Nazim Bəydəmirli vətəndaşın müraciəti əsasında araşdırmaya cəlb edilib. Qeyd olunub ki, vətəndaş polisə müraciət edərək N.Bəydəmirlinin onun barəsində rüsvayedici görüntülərin olduğunu qeyd edərək ondan 50 min manat tələb etdiyini bildirib. O, iyunun 24-də N.Bəydəmirliyə 10 min manat versə də, sonuncu qalan məbləği vermədiyinə görə şikayətçini ailəsi ilə şantaj edərək rüsvayedici görüntüləri yayacağını bildirib. N.Bəydəmirli bu müraciət əsasında saxlanılıb, artıq məhkəmə başlayıb. Söz yox ki, proses zamanı bütün qaranlıq məsələlərə aydınlıq gətiriləcək. Bununla da Ə.Kərimli və ətrafında olan trol dəstəsi bir daha onu "siyasi məhbus" kimi təqdim etməklə böyük səhvə yol verdikləri bəlli olacaq. Çünki cinayət işindəki hazırkı hallara görə N.Bəydəmirli dələduz hesab olunur. Ə.Kərimli özünü "peşəkar hüquqşünas" hesab edirsə, dələduzu "siyasi məhbus" kimi tərtib etdiyi cızma-qaradan ibarət olan siyahısına daxil etməklə özünü gülünc vəziyyətə qoymuş olur. Çünki bununla şübhəli məqam ortaya çıxır, ya Ə.Kərimli başqalarına hədə-qorxu gəlməklə pul tələb edən N.Bəydəmirli ilə əlbirdir, ya da qanunlardan bixəbərdir. Başqa bir ehtimal isə Ə.Kərimlinin dələduzu "siyasi məhbus" siyahısına adını yamamaqla ondan pul alıb. Nəzərə almaq lazımdır ki, zaman-zaman mətbuatda "siyasi məhbus" siyahısının tərtib olunmasına görə, partiya sədrlərinin və funksionerlərinin "siyasi məhbus"ların yaxınlarından pul almaları barədə məlumatlar yazılıb. Məhz bu kimi yayılan məlumatlara istinad etməklə qeyd etmək olar ki, Ə.Kərimli N.Bəydəmirlinin adını "siyasi məhbus" siyahısına salmaqla ondan böyük məbləğdə pul alıb. Əminliklə demək olar ki, N.Bəydəmirli səhvini etiraf edərkən, həm də Ə.Kərimli ilə əməkdaşlıq etdiyini dilə gətirəcək. Bunumla təbii ki, Ə.Kərimli növbəti dəfə ifşa olunacaq.

***İLHAM ƏLİYEV***

# "Bizə tələbənin forması deyil, məzmunu lazımdır"

*EKSPERT*





"İlk növbədə qeyd edim ki, universitetlər özlərinin daxili qaydalarına istinad edərək tələbələrin hüquqlarını pozurlar. Onların bu cür hərəkətləri təhsil haqqında qanuna ziddir". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Ekspert sözlərinə belə davam edib: "Ali təhsil müəssisələrinin daxili qaydalarına əsaslanaraq tələbələrin saç-saqqal saxlamasına müdaxiləsi mümkün deyil. Hər bir tələbənin geyimi və saç-saqqalı onun özünün seçimidir. Universitetlərin bu məsələdəki müdaxiləsi yolverilməzdir. Düzdür, hər bir universitetin nizamnaməsinin 1.7-ci bəndinə əsasən, universitetdə təhsil alanların geyim formasının Elmi Şuranın qərarı ilə müəyyən etmək hüququ vardır. Amma bu o deməkdir ki, geyim forması müəyyən olunarkən təhsil alanların hüquqları və təhsil almaq hüquqları tapdanmamalıdır. Eyni zamanda ali təhsil müəssisələrinin daxilində təhsil alan və təhsil verənlərin münasibətləri Təhsilalanların daxili intizam Qaydaları ilə tənzimlənir. Yəni universitetlər daxili işlərində müstəqildirlər, amma bu zaman qanunvericilik aktlarına əmək etməyə borcludurlar. Bəli. Amma onların hüquqlarını tapdamamaq şərti ilə. Yəni qadağalar təhsilin inkişafı üçün, keyfiyyətinin yüksəldilməsi üçün olmalıdır və bu əsaslandırılmış olmalıdır. Nəzəriyyə ilə yox.

Ola bilsin ki, təhsil haqqında qanunda hansısa məsələlərə toxunulmayıb. Əgər bu məsələ ilə bağlı qanunda heç nə qeyd edilməyibsə, bu o demək deyil ki, universitetlər daxili qaydaları ilə məsələləri istədikləri kimi tənzimləyə bilər. Bu hal tələbələrin hüquqlarını pozmaqla bərabər təhsil haqqında qanunun da dediyi sözü deyir. Dolayısı ilə, qanundan kənar addım atılır.

Oksford Universiteti haqqında maraqlı bir yazı oxumuşdum. Orada qeyd olunurdu ki, universitetə kənardan baxanda tələbələrin əksəriyyətini oxşar geyimdə görürsən. Hətta onların davranışı belə bir-birinə bənzəyir. Standart tələbə davranışı, imici, geyimi, çantaları var. Bizdə isə xaotik vəziyyət hökm sürür. Saqqal saxlamaq, xoşagəlməz geyimlər geyinmək intizamsızlıq əlamətidir. Hesab edirəm ki, bizə tələbənin forması deyil, məzmunu lazımdır. Forma isə məzmuna çox cüzi, üstəlik uzun müddətdən sonra təsir edə bilər. Məsələn, biz özümüz də cəmiyyət olaraq, formaca avropalıyıq, düşüncəmiz isə hələ də şərqli təfəkkürüdür. Tələbələrin saqqal saxlaması, geyimi, davranışı kimi məsələlərdə optimal variantı tapmaq üçün sosioloji tədqiqat aparmaq vacibdir. Tək tələbələrin deyil, əhalinin də fikrini öyrənmək lazımdır".

***Ayşən Vəli***




# "Zəngilan, Cəbrayıl, Qubadlı, Kəlbəcərin yenidən qurulmasının şahidi olacağıq"

*ŞƏRH*

"İşğaldan azad olunmuş bölgələrdə "Böyük Qayıdış"ın reallaşması strateji məqsədlərlə bağlıdır". Bu sözləri SİA-ya açıqlamasında beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib.

O bildirib ki, bu, 100-300 minlik şəxsin geri qaytarılmasını əhatə etmir: "Ən azından bölgələrin məskunlaşdırılması sayını 1 milyon nəfərə çıxarmaq lazımdır. Bu, geniş, əhatəli dövlət proqramına əsaslandığından siyasətüstü məsələ kimi ölçülür. Bir az da mənəvi və ideoloji proqramın tərkib hissəsidir. Bu mənada ərazilərin gələcəyinin şəkillənməsi üzərindən dövlət bir neçə vacib istiqamət üzrə plan həyata keçirir. Əlbəttə ki, ilk növbədə bölgənin minalardan təmizlənməsinə böyük ehtiyac var. Bu proses ardıcıl şəkildə də davam etdirilir. Amma minalarla çirkləndirilmiş dünyanın üç əsas sahəsindən biri Qarabağ bölgəsi olduğundan dərhal orada məskunlaşdırılmanın aparılması insanları təhlükə altında qoyur. Buna görə mərhələli şəkildə "Böyük Qayıdış"ın öncə minalarla zəngin olmayan, daha təhlükəsiz hissələrinin məskunlaşdırılması həyata keçirilir.

"Artıq şəhər mərkəzləri, xüsusilə də, Xankəndi, Şuşa, Ağdərə, Laçında yaşayış var. Dövlət qısa müddət ərzində qayıdışın müəyyən hissəsini təşkil edə bildi. Amma qarşıda Ağdam, Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı, Kəlbəcərin yenidən qurulmasının şahidi olacağıq. Dövlət buralarda mütləq yeni baxışlar ortaya qoymalıdır. Burada da iki vacib istiqamət izlənilir. Birinci, "Smart Qarabağ"ın qurulması üzərində qiymətləndirilməlidir ki, yeni standartlara uyğun həyat şəraiti təmin olunsun. İT dövləti yaratmaq ideyası üzərindən böyük yüklər ortaya qoymuş olsun. "Böyük Qayıdış" o bölgədə özü ilə potensial olaraq təhsili, mədəniyyəti yenidən qurmağa səsləyir və bunun əsasında başlamalıdır. Ona görə biz köç prosesi haqqında ilk olaraq həm də onu deməliyik ki, 2030-cu ilə qədər minimum yarım milyon vətəndaşı bölgəyə qaytarmalıyıq. Buna həm də məcburuq. İndiki vəziyyətdə isə Zəngilanın Ağalı kəndindəki ilk köçdən etibarən yeni dalğa yaşanır. Məncə, elə gün olmur ki, Bakıdakı qaçqın şəhərciklərindən Qarabağa doğru yük karvanı getməsin. Onlar yeni həyat, ocaq qurmağa gedirlər. Azərbaycanın sərhədini güclü şəkildə təmin etməyə doğru gedirlər",-deyə o əlavə edib.

# Naftalanda dincəlmək istəyənlərin menyusuna

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi istiqaməti çərçivəsində hazırlanıb*









Müalicəvi xassələrə malik olan Naftalan nefti sümük - oynaq, dəri, qadın xəstəliklərindən və uroloji xəstəliklər, əsəb, ginekoloji, uroloji və dəri xəstəliklərinin, eləcə də qara ciyər xəstəliklərinin, oynaqların və dayaq hərəkət aparatına aid olan oynaqdan kənar yumşaq toxumaların müalicəsi üçün müstəsna vasitə kimi bütün dünyada məşhurdur.

Naftalan neftinin möcüzəvi təsiri haqqında əfsanələr mövcuddur. Bu əfsanələrdən ən məşhuru Böyük İpək yolu ilə yağla dolu göllərin yanından keçən dəvə karvanı haqqındadır. Karvanbaşı asan olmayan bir qərar verərək, karvanı ləngitməmək üçün xəstə dəvəni o göllərin yanında qoyub yoluna davam edir. Karvan geri döndükdə isə qoyub getdiyi dəvəni heç bir xəstəlik izi olmadan, tamamilə sağlam görür. O vaxtdan həmin karvanın sarvanı, tacirlər Azərbaycandakı yağlı göllərin xəstəliklərə təsiri haqqında bütün dünyaya səs salır. Doğrudur, bu bir əfsanədir, lakin reallığı da inkar etmir. Çünki elə yaxın keçmişimizdə də Naftalanda bu neftlə müalicə olunan çoxsaylı insanların real hekayələri var.

## Nizamidən Poloya, Yegerdən SSRİ-yə

Azərbaycan və dünya ədəbiyyatında Naftalanın bu möcüzəvi gücü barədə tarixən məlumatlar yazılıb. Nizami Gəncəvinin və İtalyan səyyahı Marko Polonun əsərlərində müalicəvi neft haqqında ilk yazılı qeydin meydana çıxdığı XII-XVIII əsrləri əhatə edir. Marko Polo 1264-cü ildə Azərbaycandan keçərək Venesiyadan Çinə səyahət edərkən neftlə dolu nəhəng gölməçələri təsvir edərək, onu "dəri xəstəliklərinə qarşı kömək edən sehrli məlhəm" adlandırır. Səyahət zamanı gördüklərini və başına gələnləri "Böyük Tatarıstan" adlı traktatında qeyd edir.

Daha sonralar, 1873-cü ildə alman mühəndisi E.İ.Yeger neftçıxarma məqsədilə Naftalanda torpaq sahəsi əldə edir və ilk quyunu qazır. Gözlədiyi kimi yaxşı nəticə əldə etmir və iflasa uğradığını düşünür, çünki çıxan neft yanma qabiliyyətinə malik deyildi. Müşahidə etdikcə gördü ki, yerli sakinlər bu nefti bədənlərinə sürtür, neft çuxurlarında çimirlər. Sənayedə uğursuzluq ona başqa bir uğuru qazandırır, beləcə o Naftalan neftini dünyaya ixrac edə bilmək üçün 1890-cı ildə zavod açır. O istehsal etdiyi mazın nümunələrini dünyanın ən tanınmış həkimlərinə göndərir, alman həkim Liss bu maza böyük diqqət göstərərək bütün məhsulu Almaniya üçün alır.

"Yeger məlhəmi" adı verdiyi neft ona inanılmaz bir sərvət qazandırır. Sonra buradakı zavodu bağlayır və nefti xammal kimi Almaniyaya satır, beləcə daha çox qazanır. O 1904-cü ildə Drezdendə Naftalan haqqında 600 beynəlxalq həkimin rəyini əks etdirən kitab nəşr etdirir. Naftalan nefti məlhəm kimi Almaniya, Yaponiya, ABŞ, İngiltərə, Fransada böyük maraq toplayır. I Dünya Müharibəsi zamanı əsgərlərin yaralarının və donmaların müalicəsi üçün Naftalan məlhəmi çox istifadə edilirdi. Müharibənin başlaması və almanların buradan köçməsi ilə Naftalan neftində Yeger dövrü sona çatdı.

Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra 1926-cı ildən Naftalan neftinin fiziki, kimyəvi, geoloji, bioloji xassələrinin fundamental tədqiqi aparılır. Bu tədqiqatların nəticəsi olaraq 1935-ci ildə 25 çarpayılıq ilk mövsümi sanatoriya istifadəyə verilir, 1965-ci ilədək inkişaf edərək 1500 çarpayılıq Ümumittifaq Sağlamlıq Kurortuna çevrilir. Sovet dövründə müalicə üçün 15 ölkədən insanlar bura axışırdı. İl ərzində müalicəyə gələn 75 min insanın demək olar ki hamısı öz ölkəsinə sağalıb gedirdi. Bu dünyada rekord göstərici hesab olunur. Dünyanın elə bir kurort məkanı yoxdur ki, orada 92 faiz yaxşılaşma əldə edilsin. Amma bu bir həqiqətdir ki, Naftalana gələn hər 100 nəfərdən 92-si sağlamlığına qovuşurdu.

## Müharibənin Naftalanda dondurduğu həyatı Prezident canlandırdı

1992 - 2003-cü illər ərzində Naftalan sanatoriya kurort birliyinin 5 sanatoriyasında Ermənistandan gələn qaçqınların və Qarabağ köçkünlərinin yerləşdirilməsi kurortun işini demək olar ki, iflic halına salır. Şəhərin cəbhə xəttinə yaxın yerləşməsi düşmən təbliğatı ilə birlikdə müalicəyə gələn xəstələrin sayının 10 dəfələrlə azalmasına səbəb oldu. Buna Azərbaycanın sovetlər birliyinin tərkibindən ayrılması, gəliş-gediş problemlərinin yaranması da səbəb oldu.

Lakin sonralar problemlər tədricən həll edildi, ölkə prezidentinin "Regionların iqtisadi inkişafı haqqında" fərmanı, "Kurortlar haqqında" qanunun qəbulu, "Kurortların inkişaf proqramı"nın qəbulu Naftalan kurortunun keyfiyyətcə yeni bir istiqamətdə - özəl sektorun inkişafını təmin edəcək bir istiqamətdə yenidən qurulmasına səbəb oldu. İndi Naftalan nefti ilə müalicəyə gələnlər yüksək xidmətlə rastlaşırlar. Qonaqlar üçün müayinə və müalicə kabinetləri, yeməkxana, idman zalı, namaz otağı, kompyuter otağı, kişi və qadın salonu kimi xidmət sahələri fəaliyyət göstərir. Yeməkxanalarda gündə 3 dəfə xəstələrə Azərbaycan və Avropa mətbəxinin yeməkləri təqdim olunur.

## Dünyada yeganə, o da bizdə

Müalicəvi xassəsinə görə dünyada yeganə neft olan Naftalan nefti Azərbaycan Respublikasında Gəncə şəhərindən 50 km aralı Murov dağ silsiləsinin ətəyində yerləşir. Naftalan nefti dünyada yeganə neftdir ki, öz müalicəvi əhəmiyyətinə görə əfsanəvi xarakter daşıyır, həmçinin fiziki-kimyəvi xassəsinə görə başqa neftlərdən fərqlənir. Bu neft üçün əsas xarakter yüksək xüsusi çəkiyə malik olması, tərkibində yüngül fraksiyanın və bərk parafin karbohidrogenlərin olmamasıdır. 50-55% naften, 10-15% aromatik, 14-15% qətranlar, 0,5-3% naften turşuları, 0,3-0,7% kükürdlü birləşmələr, 0,3% azotlu birləşmələr, həmçinin mis, sink, manqan, bor, yod, brom və s. mikroelementlərdən ibarət olan bu neft 70-dən artıq xəstəliyin müalicəsində istifadə olunur. 5 yaşından yuxarı istənilən yaşda bu müalicə üsulundən istifadə edilə bilər.

Tərkibində kifayət miqdarda qətran olması su ilə möhkəm emulsiya əmələ gətirməsi naftalan neftini başqa neftlərdən fərqləndirir. Naftalan nefti, onların arasında sümükəzələ, sinir sistemi, dəri, damar, ginekoloji, uroloji və digər xəstəliklər də var. Naftalanın unikal müalicəvi xüsusiyyətləri sayəsində iltihab prosesləri həll olunur, ağrılar azalır, qan dövranı və mübadilə prosesləri normallaşır.

Naftalan nefti əslində, yanmağa məruz qalmayan qətranlı, parafinsiz neftdir, tərkibində benzin və ya kerosin şəklində fraksiyalar yoxdur. Naftalan neftinin əsas fəaliyyətdə olan maddəsi naften karbohidrogenləridir ki, bu da ağrıkəsici, iltihab əleyhinə və anti-allergik xüsusiyyətlərə malikdir. Bundan başqa, naftalanda aromatik karbohidrogenlərlə yanaşı, qətran da var, karbohidrogenlərin öz tərkibi isə insan hormonlarının (androgenlər, ekstrogen və kortikos-teroidlər) dəstinə çox oxşardır. Naftalan nefti spesifik qoxusu olan qara-qonur mayedir.

Naftalan nefti yerdən çıxarkən 90% su və 10% naftalan neftindən ibarət olur. Bu neft ilə müalicə edərkən isə bu nisbətin əksinə - su 10%, neft 90% olur. Naftalanla birlikdə yerdən çıxan su çox zəngin tərkiblidir, tərkibində yod və bromdan başqa həm də neftin tərkibində olan çoxsaylı mikroelementlər olduğundan bir çox xəstəliklərin müalicəsində uğurla tətbiq olunur. Naftalan nefti-qəhvəyi qonur rəngli, xüsusi aromatik qoxuya malik, yüksək özlülüyə və xüsusi çəkiyə malik mayedir. Naftalan neftinin xüsusi çəkisi 0,92 - 0,96, qaynama temperaturu 220 0C, donma temperaturu -20 0C-dir, su ilə qarışdırıldıqda davamlı emulsiya əmələ gətirir. Naftalan mürəkkəb fiziki -kimyəvi tərkibə malik olub, qətranlı, az kükürdlü, parafinsiz neft məhsuludur və tərkibində sənaye neftlərindən fərqli olaraq benzin, kerosin, liqroin kimi yüngül fraksiyalar yoxdur.

## Naftalan neftinə dövlət standartı

Naftalan Şəhər İcra Hakimiyyətinin müraciəti əsasında Naftalan nefti və ondan alınan məhsulların rəqabət qabiliyyətliliyinin artırılması məqsədilə AZS 886:2020 "Naftalan nefti nativ. Ümumi tələblər" dövlət standartının layihəsi Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən hazırlanıb və "Naftalan nefti və ondan alınan məhsullar"ın standartlaşdırılması üzrə Texniki Komitədə (AZSTAND/TK 29) müzakirə olunaraq ilk dəfə Naftalan neftinə dövlət standartı alınıb. 2020-ci ilin avqust ayında qəbul olunan standartın tətbiqi Naftalan kurortunun ölkədə rəqabət qabiliyyətliliyinin artırılmasına təkan verib, yerli və xarici turistlərə göstərilən xidmət keyfiyyətinin yüksəldilməsini və tibbi turizmin inkişafını daha da stimullaşdırıb.

Təqdim etdiyimiz qiymətlər cədvəlində Naftalandakı sanatoriyaların xidmət qarşılığında təyin olunmuş qiymətləri əks olunub. Təqdim olunan əksər qiymətlərə check-up müayinə, 3 dəfə qidalanma, vanna qəbul etmə və ən azı 3 ədəd fizioterapiya proseduru daxildir. Qeyd olunan qiymətlər sanatoriya-kurort yollayışlarına aid deyil. Sanatoriya-kurort yollayışlarının qiyməti Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə müəssisələr arasında bağlanmış müqavilə əsasında tənzimlənir.

***Lalə Mehralı***

SƏS
1 may
2024-cü il


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# “Etibarnamə ilə torpaq alqı-satqısı mümkün deyil"

*VƏKİL HÜQUQİ DETALLARI AÇIQLADI*





**“Torpaq sahələrinin etibarnamə ilə öz adına alqı-satqısı mümkün deyil”. Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Vəkillər Kollegiyasının üzvü, vəkil Turan Abdullazadə deyib.**

O bildirib ki, Mülki Məcəllənin 362.1-ci maddəsinə əsasən, bir şəxsin üçüncü şəxslər qarşısında təmsilçilik üçün başqa şəxsə verdiyi vəkalət etibarnamə sayılır: ”Yəni etibarnamə mülkiyyət sənədi yox, vəkalət sənədidir. Tez-tez şahidi oluruq ki, etibarnamə ilə adətən sənədləşdirilə bilməyən torpaqlar qeyri-rəsmi şəkildə satılır. Yəni sənədsiz torpağı satan şəxs digər alan şəxsə torpağa dair etibarnamə verməklə alqı-satqı həyata keçirirlər. Bu hərəkət qanunsuz olmaqla yanaşı, heç bir hüquqi zəmanətə də malik deyil. Mülki Məcəlləyə əsasən, daşınmaz əmlak üzərində mülkiyyəti təsdiq edən yeganə sənəd Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən verilən çıxarışdır.

Bundan başqa bildirmək istəyirəm ki, daşınmaz əmlaka dair rəsmi alqı-satqı müqaviləsi yalnız notariusda bağlanıla bilər. Etibarnamə verən şəxs istənilən vaxt gedib onu ləğv etdirə bilər. Bu zaman necə deyərlər ” it də gedəcək, ip də”. Lakin bununla da iş bitmir. Torpağı etibarnamə əsasında alan şəxs onun ilkin (kök) hüquq müəyyənedici sənədləri qaydasında olmadığı üçün ya heç vaxt həmin torpağı sənədləşdirə bilməyəcək, ya da illərlə məhkəmə çəkişmələrində vaxtını və pulunu itirərək nələrəsə nail olacaq.

Bələdiyyələrə münasibətdə bildirmək istərdim ki, hazırda Prezidentin 23 oktyabr 2007-ci il tarixli sərəncamı ilə bələdiyyələr tərəfindən alqı-satqı yolu ilə torpaqların verilməsi dayandırılıb”.

***Söylü Ağazadə***

# İsveçdə 12-ci əsrə aid gümüş sikkə tapılıb



İsveçin Visiniqso adasındakı tarixi Brahekirkan kilsəsində dəfinə tapılıb. Belə ki, kilsəyə istilik sistemi quraşdırılmazdan əvvəl təftiş üçün əraziyə arxeoloqlar dəvət edilib. Onlar kilsə divarının yanında qazıntı zamanı 2 skelet aşkar ediblər. Skeletlərdən birinin ayaq tərəfində aşkar edilmiş dəfinədə 170 gümüş sikkə olub.

Numizmatik tədqiqatlar sikkələrin 1150-1180-ci illərdə zərb edildiyini aşkara çıxarıb. Onların ən maraqlı xüsusiyyəti brakteat, yəni bir üzünün hamar olmasıdır. Bu tip sikkələr Skandinaviya ölkələrində daha geniş yayılıb.



# “Qarabağ” - ”Neftçi” oyununun stadionu dəyişdirildi

**Misli Premyer Liqasının 33-cü turunun ”Qarabağ” - ”Neftçi” oyununun keçiriləcəyi stadion dəyişdirilib. Bu barədə PFL-in saytı məlumat yayıb.**

Mayın 4-də Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilməli olan qarşılaşma təşkilati işlərlə əlaqədar olaraq ”Azersun Arena”da oynanılacaq. Oyunun başlama saatı və tarixi ilə bağlı hər hansı dəyişiklik edilməyib. Matç saat 19:30-da start götürəcək.

# XƏBƏRDARLIQ: Külək güclənəcək, çaylardan sel keçəcək



Növbəti 2 gün ərzində hava şəraitinin küləkli olacağı, bəzi çaylardan qısamüddətli daşqın və sel keçəcəyi gözlənilir. Bu barədə SİA-ya Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bildirilib ki, mayın 1-i və 2-si günün birinci yarısında Bakıda və Abşeron yarımadasında şimal-qərb küləyinin 15-18 ms/, arabir 20-23 m/s, 2-də yarımadanın bəzi yerlərində arabir 25-28 m/s-dək güclənəcəyi gözlənilir.

Azərbaycanın rayonlarında da bir neçə gün davam edən mülayim, isti hava şəraitindən sonra mayın 2-si gündüz şimal və qərb rayonlarından başlayaraq hava şəraitinin dəyişəcəyi, 5-i səhərədək fasilələrlə yağıntılı olacağı gözlənilir. Ayrı- ayrı yerlərdə yağıntıların (Naxçıvan MR, Qazax-Gəncə, Qarabağ və Şərqi Zəngəzur, Balakən-Şəki, Quba-Qusar, Dağlıq Şirvan, Mərkəzi Aran, Lənkəran-Astara) leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Qərb küləyi arabir 15-20 m/s, 2-də gündüz bəzi yerlərdə arabir 23-28 m/s-dək güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə mayın 3 və 4-də tədricən 4-8 dərəcə aşağı enəcək. Çaylarda suluğun artacağı, Böyük və Kiçik Qafqazın, Lənkəran-Astara bölgəsinin bəzi çaylarından qısamüddətli daşqın və sel keçəcəyi gözlənilir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3200**